RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 180 (9347) 24 AVQUST 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan–Özbəkistan:
# Zamanın sınağından çıxmış strateji tərəfdaşlar

◆ Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri

## Füzuli Beynəlxalq Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasında dövlət səfərində olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev avqustun 23-də Füzuli rayonuna gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qarşıladılar.




2-6



## Uğur diplomatiyası

### Azərbaycanın prinsipial mövqeyi Ermənistanın ümidlərini puça çıxarır

BMT Təhlükəsizlik Şurasının iclası başqa həqiqətləri də üzə çıxardı. Məsələn, məlum oldu ki, Ermənistan hökuməti və erməni diasporu arasındakı ciddi narazılıqlar, anlaşılmazlıqlar gündən-günə dərinləşir. Bir daha təsdiq olundu ki, belə müzakirələrə, ümumiyyətlə, heç bir ehtiyac yox idi, məsələ BMT və digər platformalarda deyil, yerində həll olunmalıdır.

Ermənistan da, onun Fransa kimi havadarları da, Qarabağ erməniləri də bu cür fiaskolardan sonra, nəhayət, anlamalıdırlar ki, daha onlar üçün başqa yol qalmayıb. Şərtləri diktə edən indi Azərbaycandır və Qarabağ erməniləri Azərbaycanın şərtlərini qəbul edib haqq yoluna gəlməlidirlər. Çünki beynəlxalq hüquq da, haqq-ədalət də, güc də, aydın gələcək, xoşbəxtlik və rifah da məhz Azərbaycanın tərəfindədir.

9

## Belçika Azərbaycanın artan nüfuzunu həzm edə bilmir

### Azərbaycan əleyhinə səslənən fikirlər bu ölkənin qərəzli yanaşmasını ortaya qoyur

Ölkəmiz Ermənistanın nümayiş etdirdiyi müxtəlif siyasi şoulara rəğmən, Qarabağda yaşayan sadə erməni sakinlərin Laçın yolundan sərbəst keçidini təmin edir, onların rahat və təhlükəsiz yaşayışına imkan yaradır, ən əsası isə bədnam qonşumuza təkmil sülh modeli təklif edir. Bir sıra xarici dövlətlər və beynəlxalq təşkilatlar isə bu reallıqları görmək istəmirlər və Ermənistanın uydurduğu qondarma hekayələrə inanırlar. Belə olan halda da ölkəmiz əleyhinə əsassız fikirlər səsləndirir, heç kimə lazım olmayan boş kağız parçalarını qətnamə adı ilə yayır, müxtəlif bəyanatlar verirlər. Son həftələrdə Belçikanın nümunəsində bunun bir daha da şahidi olduq. Lakin bütün bunlar Azərbaycanı qətiyyən narahat etmir. 44 günlük Vətən müharibəsində öz gücü ilə 30 illik işğala son qoyan, BMT-nin qətnamələrinin icrasına təkbaşına nail olan Azərbaycanın güclü iradəsi bizə düşmən münasibət sərgiləyən bütün qüvvələrin fövqündə dayanır.

7

## Otuz bir il əvvəl şəhid olan Məhərrəm Abbasov torpağa tapşırılıb

Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, hökumət, Müdafiə Nazirliyi və Nizami rayon ictimaiyyətinin nümayəndələri, o cümlədən döyüş yoldaşları, rayon sakinləri, qazilər, media nümayəndələri iştirak ediblər.

Şəhid Məhərrəm Abbasov əsgəri ənənələrə uyğun olaraq yaylım atəşi və Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidlərimizin ruhuna dualar oxunub, xalqımıza və dövlətimizə sülh və əmin-amanlıq arzulanıb, şəhidin məzarına tər güllər düzülüb, əklil qoyulub.

Şəhidin nəşinin büküldüyü üçrəngli bayraq oğlu İlkin Abbasova təqdim olunub.

8

## Ermənistan təxribatlarına son qoymalıdır

### Bu kimi hərəkətlərlə ermənilər özlərini məhvə aparırlar

Havadarlarının dəstəyi ilə regionda sülh və əməkdaşlıq prosesinə mane olmağa, gərginliyi artırmağa cəhd edən Ermənistan müxtəlif istiqamətlərdə təxribatlar törətməklə, yalan informasiyalarla həm mətbuatda, həm də sosial şəbəkələrdə beynəlxalq ictimai rəyə mənfi təsir göstərməyə, çaşqınlıq yaratmağa çalışmaqla məkrli niyyətini reallaşdıra bilməyəcək.

7

## Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan ermənilərə humanitar yüklərin çatdırılmasına dəstək verməyə hazırdır

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) 1920-ci ildən bəri Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi olaraq, hərəkatın 7 fundamental prinsipini, xüsusilə "bitərəflik", "qərəzsizlik", "vahidlik" prinsiplərini rəhbər tutaraq həm sülh dövründə, həm hərbi münaqişələr şəraitində, eyni zamanda fövqəladə hallar zamanı dini etiqadından, milli mənsubiyyətindən, irqindən, siyasi baxışlarından asılı olmayaraq, insanlar arasında fərq qoymadan müharibə qurbanlarına, məcburi köçkün və qaçqınlara, minadan zərər çəkmişlərə və ehtiyacı olan digər insanlara zəruri humanitar yardımlar göstərir.

8

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri

# Azərbaycan–Özbəkistan:

# Qardaş hədiyyəsi

### Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı olub














**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçıları və xanımları əvvəlcə yeni dərs ilində bu məktəbdə təhsilə başlayacaq şagirdlərlə və burada işləyəcək müəllimlərlə görüşüb söhbət etdilər.

**Prezident İlham ƏLİYEV:** Salam uşaqlar, necəsiniz?

**Uşaqlar:** Salam, yaxşıyıq.

**Qadın sakin:** Xoş gördük, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Salam, xoş gördük.

**Prezident Şavkat MİRZİYOYEV:** Salaməleyküm.

**Qadın sakin:** Salam, xoş gəlmisiniz.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Güllər var, çiçəklər var, salam balalar, salam.

**Qadın sakinlər:** Salam, xoş gördük, Mehriban xanım.

**Prezident İlham ƏLİYEV:** Uşaqlar, bu məktəbi mənim qardaşım, hörmətli Şavkat Miromonoviç Füzuli şəhərinə hədiyyə edib. Xahiş edirəm ki, mənim qardaşımı səmimiyyətlə salamlayaq.

**Məktəbin direktoru Həcər Mahmudova:** Cənab prezidentlər, mən də icazənizlə, Sizi burada olan müəllimlərimiz, şagirdlərimiz, valideynlərimiz adından salamlayıram. Sizləri bu möhtəşəm məktəbdə görməkdən qürur duyuruq. Otuz il öncə 26 yaşında bu şəhəri tərk edən sakini kimi mən - demək olar ki, eyni tarixlərdə, - bir gün fərqi var, - buraya qayıtmışam. Bu anları bizə yaşatdığınıza görə Sizə təşəkkür edirik, qalib ordumuza minnətdarıq. Bu gözəl məktəbi tikib bizə bəxş etdiyinə görə Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyevə və onun timsalında Özbəkistan xalqına minnətdarıq. Cənab Mirziyoyevdən xahiş edirik ki, bizim Füzuli sakinlərinin bu minnətdarlığını öz xalqına, özbək xalqına çatdırsın.

**Prezident Şavkat MİRZİYOYEV:** Çox sağ olun.

**Həcər Mahmudova:** Biz pedaqoji kollektivin üzvləri birlikdə sizləri əmin edirik ki, bu məktəbdə təhsil alacaq şagirdlərin gələcəkdə yüksək bilik-bacarığa, eyni zamanda milli-mənəvi dəyərlərə sahib bir vətəndaş olaraq yetişməsində var qüvvəmizlə çalışacağıq. Sizə minnətdarıq, bir daha çox sağ olun.





**Prezident Şavkat MİRZİYOYEV:** Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Məktəbə Mirzə Uluqbəyin adı verilib.

**Həcər Mahmudova:** Bəli, Əmir Teymurun nəvəsi.

**Prezident İlham ƏLİYEV:** Bəli, Əmir Teymurun nəvəsi, özbək xalqının böyük oğlunun adı verilib. Bu məktəb Özbəkistan-Azərbaycan dostluğunun, qardaşlığının bir mərkəzi olacaq.

**Həcər Mahmudova:** Biz buna çalışacağıq. Təşəkkür edirik Özbəkistan Prezidentinə, təşəkkür edirik özbək xalqına, minnətdarıq.

**Prezident Şavkat MİRZİYOYEV:** Sağ olun.

❖ ❖ ❖

Dövlət başçıları məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Xeyirli, uğurlu olsun.

**Prezident Şavkat MİRZİYOYEV:** İnşallah, uğurlu olsun.

Sonra xatirə şəkli çəkildi.

Daha sonra dövlət başçılarına və xanımlarına məktəbdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Ötən il başlanılan tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib.

Sonra görülən işlərlə bağlı məktəbin akt zalında videoçarx nümayiş etdirildi.

Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri

# Zamanın sınağından çıxmış strateji tərəfdaşlar

## Azərbaycan ilə Özbəkistan prezidentləri və xanımları Füzuli şəhərində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər










**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər.**

AZƏRTAC xəbər verir ki, sakinləri təbrik edən **Prezident İlham ƏLİYEV** dedi:

- İlk növbədə sizi təbrik edirəm, öz vətəninizə xoş gəlmisiniz. Otuz il Vətən həsrəti ilə yaşamış insanlar artıq öz dədə-baba torpağına qayıdıblar və burada yaşayırlar. Beş gün bundan əvvəl birinci qrup Füzuli sakinləri Füzulidə yerləşdi, gözəl evlərdə yerləşdi və bundan sonra burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz.

Mən bu gün əziz qardaşım Şavkat Miromonoviç ilə birlikdə sizinlə görüşə gəlmişəm. Bildiyiniz kimi, hörmətli Prezidentin əmri ilə Füzulidə Mirzə Uluqbəyin adını daşıyan gözəl məktəb inşa edildi. Sizin uşaqlarınız, nəvələriniz artıq sentyabrın 15-dən başlayaraq bu məktəbdə oxuyacaqlar. Bu gözəl hədiyyəyə görə sizin adınızdan əziz qardaşıma bir daha təşəkkür edirəm.

Sizi bir daha ürəkdən təbrik edirəm. Burada rahat, xoşbəxt yaşayın!

❖ ❖ ❖

Özbəkistan Respublikasının Prezidenti **Şavkat MİRZİYOYEV** dedi:

- Əziz dostum və qardaşım İlham Əliyev ilə Qarabağa, Füzuliyə səfərim ürəyimdəki böyük arzularımdan biri idi. Bu Qələbə üçün qardaşımın çiyninə çətin vəzifələr düşdü. Amma bu vəzifələr onun ədaləti və həqiqəti bərpa etmək üçün göstərdiyi bütün səylərin nəticəsidir ki, qardaşım Qarabağda Qələbə qazandı. Bu Qələbəni ancaq Vətəninin böyük övladı, xalqını sevən belə müdrik Prezident qazana bilər. Belə bir Prezident qardaşımızın varlığından qürur duyuruq.

Bizim böyük Qarabağda əsrlər boyu davam edən birliyimiz var. Babamız Əmir Teymurdan başlayan münasibətlərimiz indi də çox yaxşıdır. Qardaşımın Qələbəsindən sonra iki xalqın böyüklüyü, gələcəkdə də bir-biri ilə dostluğunu davam etdirməsi üçün bir məktəb tikdirmək arzusunda idim. Bu gün arzum gerçəkləşdi. Mən sizləri qayıdışınız və qələbəniz münasibətilə təbrik edirəm. Sizlərin gələcək həyatınızın firavanlığı üçün qardaşım İlham Heydər oğlu Azərbaycanın dünya birliyində ildən-ilə nüfuzunu artırır. Görülən işlər gözəl nümunədir və biz bu xəbərləri eşitməkdən, bu möhtəşəm işləri görməkdən ancaq xoşbəxtik.

Bu məktəb səmimi dostluğumuzun gələcəyinə bir abidə olacaq desəm, doğru olardı. Fürsətdən istifadə edərək bu məktəbdə təhsil alan uşaqlarımızı ildə iki dəfə Uluqbəyin vətəninə, Özbəkistana, Səmərqəndə dəvət etdim. Qardaşımdan bir daha xahiş edirəm, uşaqlar valideynləri ilə gəlsələr, daha çox məmnun olaram.

Bizdə çox gözəl bir məsəl var ki, sevgi gözdədir. Bir-birimizi görə bildikcə sevgi artır. Birliyimiz səmimi, dostluğumuz əbədi olacaq. Bu, mənim istəyimdir. Mən sizi görməyimdən çox məmnunam. Bundan sonra sizə yalnız sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram. Sağ və salamat qalın.

❖ ❖ ❖

Füzuli rayon sakini **Elnur Nərimanzadə** dedi: Möhtərəm cənab prezidentlər, Sizi Füzuli şəhərinin sakinləri adından salamlayırıq.

1993-cü il avqustun 23-də, - mənim 3 yaşım var idi, - bu torpaq işğal olundu. Bu gün biz öz doğma yurdumuza qayıtmışıq. Cənab Prezidentimizin göstərişi ilə bu gözəl evlər tikilib, biz bu gözəl evlərə köçmüşük. Hazırda buradayıq, öz torpağımızdayıq, öz yurdumuzdayıq. Buna görə cənab Prezidentimizə təşəkkür edirik.

Bu gün, cənab Prezident Mirziyoyev, Sizə təşəkkür edirik ki, bizim üçün, övladlarımızın təhsil almaları üçün belə gözəl bir məktəb tikdirmisiniz. Çox sağ olun, minnətdarıq.

**Prezident Şavkat MİRZİYOYEV:** Sağ olun.

**Sakin:** Dostluğunuz, qardaşlığınız əbədi olsun! Sizi təbrik edirəm, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təbrik edirəm.

**Sakinlər:** Sağ olun. Allah Sizdən razı olsun. Çox minnətdarıq.

**Prezident İlham ƏLİYEV:** Təşəkkürlər, sağ olun.

**Sakinlər:** Sağ olun.

❖ ❖ ❖

Sonra dövlət başçılarına və xanımlarına Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən tikilmiş yaşayış kompleksi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 8,9 hektar olan kompleks 38 yaşayış binasından ibarətdir. Binalar 4, 5, 6 və 7 mərtəbəlidir. Bu binalarda ümumilikdə 846 mənzil olacaq ki, onlardan 318-nin ikiotaqlı, 430-nun üçotaqlı, 98-nin isə dördotaqlı olması nəzərdə tutulur.

Hazırda kompleksin inşası sürətlə və yüksək keyfiyyətlə davam etdirilir. Altı bina və 144 mənzildən ibarət birinci məhəllənin tikintisi cari il avqustun sonlarında başa çatdırılacaq. Altı bina və 123 mənzildən ibarət ikinci məhəllə isə sentyabrda təhvil veriləcək. Ümumilikdə 579 mənzildən ibarət daha 26 binanın tikintisi bu ilin sonlarında başa çatdırılacaq.

Burada bütün mənzillər tam təmirli, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz olunaraq sakinlərin istifadəsinə veriləcək. Bütün binalar mərkəzləşdirilmiş qazanxana vasitəsilə istilik və liftlə təmin ediləcək.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, giriş və çıxış pandusları, istirahət guşələri, uşaq oyun və idman meydançaları da yaradılacaq.

❖ ❖ ❖

Sonda xatirə şəkilləri çəkdirildi.

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri

# Azərbaycan–Özbəkistan:

## Füzulinin baş planı ilə tanışlıq





**Avqustun 23-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərinin baş planı ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə, xanımı Ziroatxon Mirziyoyevaya Füzulidə görülən və görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq.

Yaşayış ərazilərinin sıxlığının müəyyənləşdirilməsində proqnozlaşdırılan əhali sayı ilə yanaşı, təklif edilən digər şəhər xidmətlərinin yerləşməsi də nəzərə alınıb. Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq mərkəzi, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman kompleksinin inşası, Qələbə və Memorial park, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, baş planda Füzuli şəhərinin dayanıqlı inkişafı, ağıllı həllər əsasında qurulması və insanların sağlam həyatını təmin etmək üçün ən müasir şəhərsalma yanaşmaları tətbiq edilib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və xanımı Ziroatxon Mirziyoyevaya işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları barədə də məlumat verildi.

## Azərbaycan ilə Özbəkistan prezidentləri və xanımları Şuşaya səfər ediblər









**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Şuşa şəhərinə səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçıları və xanımları əvvəlcə Saatlı məscidində olublar. Özbəkistan Prezidentinə və xanımına məlumat verildi ki, məscid 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəllər Molla Pənah Vaqifin dərs dediyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub. Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi, Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb və bu ilin may ayında məscidin açılışı olub.

Sonra prezidentlər və xanımları Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxdılar.

Prezidentin köməkçisi Anar Ələkbərov Özbəkistan Prezidentinə və xanımına mərkəz və sərgi barədə məlumat verdi.

Bildirildi ki, Yaradıcılıq Mərkəzi Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra bu il mayın 10-da istifadəyə verilib. Bina ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır.

Qeyd edildi ki, "Heydər Əliyev və Qarabağ" sərgisində Ulu Öndərin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf sahələrindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Eləcə də sərgidə Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, burada keçirdiyi görüşlərə, müxtəlif tədbirlərə aid fotolar yer alıb.

Diqqətə çatdırıldı ki, 1969-cu ildən etibarən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev mürəkkəb tarixi şəraitdə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu il yanvarın 12-də Ümummilli Liderin iştirakı ilə Ağdam-Xankəndi dəmir yolu açıldı. Bu, Ulu Öndər Heydər Əliyevin Qarabağın Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi. Ulu Öndər Şuşanın inkişafına da xüsusi əhəmiyyət verir və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirirdi.

*Ardı 5-ci səh.*

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri

# Zamanın sınağından çıxmış strateji tərəfdaşlar

## Azərbaycan ilə Özbəkistan prezidentləri və xanımları Şuşaya səfər ediblər

*Əvvəli 4-cü səh.*

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə baxdılar.

İşğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırılıb.

Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər Prezident İlham Əliyevin göstərişi ilə əvvəlki yerlərinə qoyulub.

Sonra ali qonaq və xanımı Şuşanın baş planı ilə tanış oldular.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov şəhərin baş planı barədə ali qonağa və xanımına məlumat verdi. Qeyd edildi ki, şəhərin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Azərbaycanın mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri əksini tapıb. Hazırda baş plan əsasında Şuşada bərpa və yenidənqurma işləri davam etdirilir. Natəvan bulağı ilə tanışlıq zamanı qeyd olundu ki, Şuşa işğaldan azad edildikdən qısa müddət sonra istifadəyə verilən "Xan qızı" bulağı şəhərin məşhur məkanlarından biridir. Xan qızı Xurşidbanu Natəvan təkcə şairə kimi deyil, xeyirxahlığı ilə də tanınırdı. Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti "Xan qızı" bulağı adı ilə məşhur idi. İşğal dövründə suyu quruyan bulaq yenidən sakinlərin və şəhərin qonaqlarının istifadəsindədir.

Özbəkistan Prezidenti və xanımı Yuxarı Gövhər ağa məscidi ilə də tanış oldular. Məlumat verildi ki, Yuxarı Gövhər ağa məscidi ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Şuşa şəhəri işğal altında olduğu müddətdə bu məscid ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin sonlarından başlanan bərpa işlərindən sonra bu ilin mayında məscidin açılışı olub.

Sonra Özbəkistan Prezidenti və xanımı Bülbülün ev-muzeyində oldular.

Ali qonağa və xanımına məlumat verən Polad Bülbüloğlu bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında keçmiş Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il 31 avqust tarixli qərarı ilə Bülbülün doğulduğu və yaşadığı evin muzeyə çevrilməsi barədə qərar qəbul edib. Bina 1982-1983-cü illərdə təmir olunub, muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Şuşa işğaldan azad olunduqdan sonra isə Bülbülün ev-muzeyində də bərpa işləri aparılıb və 2021-ci il avqustun 29-da muzeyin açılışı olub.













Mehmandarovların malikanə kompleksi ilə tanışlıq zamanı bildirildi ki, bu kompleks Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir.

*Ardı 6-cı səh.*

# Azərbaycan ilə Özbəkistan prezidentləri və xanımları Şuşaya səfər ediblər

*Əvvəli 5-ci səh.*

Diqqətə çatdırıldı ki, 2021-ci ilin oktyabrından etibarən Heydər Əliyev Fondu tərəfindən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidində və bulaqda təmir-bərpa işləri aparılıb. Evin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrün texnologiyalarına uyğun bərpa edilib. Görülmüş işlərdən sonra malikanə kompleksində muzey ekspozisiyası qurulub. "Qarabağ zadəganının evi" mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu - XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülüb. Zadəgan malikanəsinin qonaq otağı evin siması olduğundan burada ən müasir interyer elementlərindən istifadə edilib. Otaqda milliliyi nümayiş etdirən elementlər də var. İnteryerdə dövrün fotoçərçivələrinə salınmış məlumat və portretlər asılıb. İnteryer təəssüratını pozmamaq üçün foto və məlumatların çərçivələri dövrə uyğun hazırlanıb. Fotolar Şuşanın tanınmış zadəgan nəsillərinə - Mehmandarovlara, onlarla qohumluq əlaqəsi olan Rüstəmbəyovlara, Vəzirovlara, Qacarlara aiddir. Malikanədəki otaqları milli əşyalarla yanaşı, Avropasayağı məişət əşyaları da bəzəyir. Otaqlar dövrün eksponatları ilə XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid interyer qaydalarına uyğun tərtib edilib. Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə olunub.

Sonra dövlət başçıları və xanımları Cıdır düzündə oldular.

Ali qonağa və xanımına məlumat verildi ki, Cıdır düzü Şuşanın rəmzlərindən biri, tarixən cıdır yarışlarının və Qarabağ xanlığı dövründən yerli türk əhalinin Novruz bayramını və digər el şənliklərini keçirdiyi ərazidir.

Şuşa ilə tanışlıq qonaqlarda dərin təəssürat doğurub.

















# Səfər başa çatıb





**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Azərbaycan Respublikasına dövlət səfəri avqustun 23-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və digər rəsmi şəxslər yola saldılar.

# XİN: "Kanada tərəfinin bəyanatları bölgədə sülhə və sabitliyə xidmət etmir"

Kanadanın xarici işlər naziri Melani Jolinin erməni icmasının tədbirində çıxışı zamanı Azərbaycanın Qarabağ bölgəsinə istinadən ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı fikirlər səsləndirməsini qətiyyətlə pisləyirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Melani Jolinin erməni icmasının tədbirində çıxışı zamanı səsləndirdiyi fikirlərə dair şərhində bildirib. "İlk dəfə deyil ki, Kanadanın xarici işlər naziri bölgədə separatçılığı və revanşist qüvvələri dəstəkləyən, ermənipərəst hisslərin açıq şəkildə ifadə olunduğu birtərəfli bəyanatlar səsləndirir.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalını və yüz minlərlə azərbaycanlının insan hüquqlarının pozulmasını qınayan, bu illər ərzində aparılan danışıqlar prosesinə töhfə verəcək və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsini dəstəkləyəcək hər hansı bəyanatla çıxış etməyən Kanada xarici işlər nazirinin Azərbaycan əleyhinə əsassız şəkildə bəyanatlar verməsi qarşı tərəfdən nümayiş etdirilən qərəzli yanaşmanın nümunəsidir. Kanada tərəfinin bu kimi bəyanatları bölgədə sülhə və sabitliyə xidmət etmir və qəbuledilməzdir.

Bir daha Kanada tərəfindən bu kimi təhrikedici addımlardan çəkinməyi və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşmağı tələb edirik. Kanada, həqiqətən də, bölgədə dayanıqlı sülhün təmin olunmasını istəyirsə, o zaman beynəlxalq hüququn norma və prinsiplərinin tələblərinə uyğun davranmalıdır. Bunun əksi bölgədə sülhün bərqərar olması prosesinə zərər verməkdən başqa bir şey deyil", - deyə Ayxan Hacızadə vurğulayıb.

# İcma: "Kanada Azərbaycana qarşı ittihamlar səsləndirmək üçün mənəvi hüququnu çoxdan itirib"

Kanada Azərbaycana qarşı ittihamlar səsləndirmək üçün mənəvi hüququnu çoxdan itirib.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib. Qeyd olunub ki, Qərbi Azərbaycan İcması Kanadanın xarici işlər nazirinin növbəti anti-Azərbaycan açıqlamasını, Azərbaycanın suveren ərazilərinə münasibətdə qondarma, əcaib addan istifadə etməsini kəskin şəkildə pisləyir. "Davamlı olaraq Azərbaycan əleyhinə mövqe sərgiləyən, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləməsinə və onların öz evlərinə qayıtmasına imkan verməməsinə göz yuman kanadalı nazir nədənsə Azərbaycanın beynəlxalq hüquqa uyğun şəkildə atdığı legitim addımlardan xoflanır və ölkələrin suverenliyi və ərazi bütövlüyünə münasibətdə ikili standartlar yanaşmasından çıxış edir. Xanım nazirə xatırladırıq ki, tarixi yerli xalqlara qarşı ədalətsizliklər, ayrı-seçkiliklərlə dolu olan, vaxtilə BMT-nin yerli xalqların hüquqları haqqında bəyannaməsinə qarşı çıxmış çox az sayda ölkələrdən biri Kanada Azərbaycana qarşı ittihamlar səsləndirmək üçün mənəvi hüququnu çoxdan itirib.

Kanadalı nazirin erməni icmasını məmnun etmək üçün düşdüyü acınacaqlı vəziyyətə acıyır və onun Azərbaycana qarşı qondarma açıqlamalarını rədd edirik", - deyə bəyanatda vurğulanıb.

# Qərbi Azərbaycan İcması Lüksemburqun xarici işlər nazirinin Azərbaycana qarşı yönəlmiş açıqlamasını pisləyib

Qərbi Azərbaycan İcması Lüksemburqun xarici işlər nazirinin Azərbaycana qarşı yönəlmiş 2023-cü il 23 avqust tarixli açıqlamasını kəskin şəkildə pisləyir.

Bu barədə AZƏRTAC-a icmadan məlumat verilib. Bildirilib ki, Lüksemburqun və onun uzun müddətdən bəri qatı anti-Azərbaycan mövqeyi sərgiləyən xarici işlər nazirinin belə açıqlamaları gülüş və kinayə doğurur. Azərbaycan ictimaiyyəti Lüksemburqun ədalətsiz, düşmən mövqeyini xüsusən Vətən müharibəsindən yaxşı xatırlayır. Lüksemburq bəşəri dəyərlərə, beynəlxalq hüquqa açıq-aşkar hörmətsizlik nümayiş etdirir. 30 il ərzində Ermənistanı Azərbaycan ərazilərinin işğalına son qoymağa çağırmayan, biz qərbi azərbaycanlılar da daxil olmaqla, yüz minlərlə azərbaycanlının öz dədə-baba yurdlarından qovulmasına göz yuman Lüksemburqun indi Azərbaycana hansısa çağırış etməsi üçün mənəvi hüququ yoxdur.

"Qərbi Azərbaycan İcması Lüksemburqu Azərbaycanın daxili işlərinə kobud müdaxilədən əl çəkməyə, xüsusilə onun xarici işlər nazirini Azərbaycanofobiya mərəzindən qurtulmağa çağırır", - deyə məlumatda qeyd olunub.



# Qardaş həm də dostdursa...

## Azərbaycan-Özbəkistan əlaqələri qədim tarixə, bu günün çağırışlarına və gələcək perspektivlərə söykənir

**Azərbaycanla Özbəkistan arasında əlaqələrin, münasibətlərin tarixi qədimdir. Səlcuqların, Xarəzmşahın, Əmir Teymurun, bütövlükdə Türküstan adlanan dövrdən formalaşan bu əlaqələr əsrlər, qərinələr keçdikcə yeni mahiyyət və məzmun almış, keyfiyyətcə yeni mərhələlərə qədəm qoymuşdur.**

İnsaf xatirinə etiraf edək ki, Bakı ilə Daşkənd arasında əlaqələrin inkişafında keçmiş SSRİ-nin də rolu az olmayıb. Hər iki müttəfiq respublikanın eyni dövlətin tərkibində olması bu əlaqələri təkcə ittifaqdaxili deyil, ikitərəfli formatda da inkişaf etdirib. Özbək və Azərbaycanın, o zamanın təbirincə desək, zəhmətkeşlərinin qarşılıqlı səfərləri, həmin səfərlərdə mədəniyyət və incəsənət xadimlərinin də iştirakı təkcə iqtisadi deyil, eyni zamanda mədəni sahədə əməkdaşlığın inkişafında mühüm rol oynamışdır.

Daha bir faktı da xatırlamaq yerinə düşər. 1930-cu illərdə qırmızı imperiyanın cəza maşınının kütləvi repressiyaları zamanı on minlərlə azərbaycanlının sürgün edildiyi Orta Asiya regionunda soydaşlarımızın özünə sığınacaq tapdığı yerlərdən biri də Özbəkistan olmuşdur. Əminliklə deyə bilərik ki, Azərbaycanın bu gün Özbəkistanla əlaqələrinin yüksək səviyyədə olmasında ora sürgün edilmiş soydaşlarımızın müəyyən rolu var.

Azərbaycanla Özbəkistan arasında münasibətlər sovetlərin dağılması və müttəfiq respublikaların öz müstəqilliklərini elan etməsindən sonra daha da inkişaf etməyə başladı. Həmin dövrə Azərbaycan-Özbəkistan arasında münasibətlərdə yeni bir mərhələnin başlanğıcı da demək olar. Doğrudur, müstəqilliyin ilk illərində Bakı ilə Daşkənd arasında əlaqələr, qarşılıqlı münasibətlər arzuedilən səviyyədə deyildi. Amma Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtmasından sonra Özbəkistanla da əlaqələrdə, qarşılıqlı münasibətlərdə bir sıçrayış, inkişaf müşahidə edilməyə başladı. Bu, bir tərəfdən, Heydər Əliyev kimi böyük siyasi təcrübəyə malik liderin Azərbaycana rəhbərlik etməsi ilə bağlı idisə, digər tərəfdən, onun hələ SSRİ zamanında Özbəkistan rəhbərliyi ilə qurmuş olduğu dostluq, qardaşlıq münasibətləri ilə əlaqədar idi. Özbəkistan Prezidenti İslam Kərimov və Azərbaycanın dövlət başçısı Heydər Əliyev SSRİ zamanından qalan dostluq, qardaşlıq münasibətlərinə söykənərək müstəqil dövlətlərimiz arasında bütün sahələr üzrə əlaqələri yeni mərhələyə daşıdılar.

Məhz həmin təməl bugünkü əlaqələrin daha yüksək səviyyədə olmasının ilkin şərti kimi tarixə yazılır. Bu baxımdan Prezident İlham Əliyevin hər iki liderin tarixi xidmətlərini yüksək qiymətləndirməsi təsadüfi deyil: "Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu. Həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov - iki ölkənin liderləri ikitərəfli münasibətlərin bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar. Yəni bizim dostluğumuzun böyük tarixi və tarixi kökləri vardır. Ancaq müstəqil ölkələr kimi Özbəkistan və Azərbaycan son illər bu əməkdaşlığı yüksək səviyyəyə qaldırmışlar".

Əsası Heydər Əliyev və İslam Kərimov tərəfindən qoyulan bu siyasəti indi Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistanın dövlət başçısı Şavkat Mirziyoyev yeni məzmun və formada inkişaf etdirirlər. Dövlət başçıları səviyyəsində mövcud olan dostluq-qardaşlıq əlaqələri Azərbaycanla Özbəkistanı bir-birinə daha da yaxınlaşdırır, ölkələrimiz arasında yeni əməkdaşlıq imkanları açır. Türk kökünə bağlılıq, qan və can qardaşlığı nəticəsində iqtisadi tərəfdaşlığın hazırkı səviyyəsi onu deməyə əsas verir ki, bu əlaqələr sabah daha da genişlənəcək.

Məlumdur ki, Özbəkistanın dənizə çıxışı yoxdur. Amma Azərbaycan körpü rolunu oynayaraq qardaş ölkənin dünya iqtisadiyyatına inteqrasiya etməsində yardımçı olur. Şərqlə Qərb arasında nəqliyyat əlaqəsini təmin edən Orta dəhlizlə bağlı hər iki ölkə ortaq mövqedən çıxış edir. Bu, Özbəkistanın Azərbaycanı Avropaya çıxış əldə etmək üçün əsas ölkə kimi qəbul etməsində də görünür. Söhbət Çin-Özbəkistan-Türkmənistan və Qazaxıstan-Azərbaycan marşrutu üzrə məhsulların Avropa bazarlarına tədarükündən gedir. Bundan əlavə, sənayenin inkişafı sahəsində Özbəkistanın potensialı və Azərbaycanın energetika sahəsində əldə etdiyi uğurlar hər iki ölkə üçün iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə böyük imkanlar açır.

Bu baxımdan Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana etdiyi növbəti səfərin ölkələrimiz arasında əməkdaşlığa daha güclü təkan verəcəyi şübhəsizdir. Səfər həm iqtisadi-ticarət, investisiya tərəfdaşlığının daha da genişlənməsinə yol açacaq, həm də enerji, regionlararası əməkdaşlıq, sənaye, xüsusilə avtomobil sənayesi, tekstil, kənd təsərrüfatı, nəqliyyat-tranzit, səhiyyə, turizm, humanitar və digər sahələr üzrə əlaqələrin potensialını işə salacaq.

Sənaye kooperasiyası ilə bağlı məsələlər hər iki dövlətin iqtisadi tərəfdaşlığında duran mühüm layihələrdəndir. Xəbər verildiyi kimi, ötən ay Şuşada Hökumətlərarası Komissiyanın növbəti iclası keçirilmişdir. Komissiya qarşılıqlı əlaqə məsələlərinin bütün spektrini ətraflı şəkildə təhlil etmişdir. Məlum olmuşdur ki, enerji sahəsində çox yaxşı perspektivlər var. Azərbaycanın enerji şirkətləri Özbəkistanla qarşılıqlı əlaqələr quraraq birlikdə fəaliyyət göstərirlər. Ümumiyyətlə, Azərbaycanın və Özbəkistanın bütün istiqamətlər üzrə birgə uğurlu fəaliyyəti uzun illər üçün nəzərdə tutulub. Məhz bu amil prezidentlərin avqustun 23-də verdikləri birgə bəyanatlarında xüsusi vurğulanmışdır.

Özbəkistan işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə töhfə verən ilk ölkələrdəndir. Xarici dövlət tərəfindən maliyyələşdirilən ilk xarici layihə də Özbəkistana məxsusdur. İşğaldan azad edilmiş Füzuli şəhərində Prezident Şavkat Mirziyoyevin təşəbbüsü ilə Özbəkistan büdcəsinin vəsaiti hesabına 960 şagirdlik məktəb binası inşa olunub. Bu barədə Prezident İlham Əliyev fikirlərini belə ifadə edib: "Bu, Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsidir və biz bu qardaşlıq, həmrəylik, dəstək jestini çox yüksək dəyərləndiririk. Digər tərəfdən, deyərdim ki, bu məktəb, əslində, bir təhsil sarayıdır. Mən may ayında Füzulidə olarkən tikintinin gedişi ilə tanış oldum və Özbəkistanın bizə təqdim etdiyi həmin dost töhfəsinin miqyasını əyani şəkildə gördüm. Məktəb özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyır və əminəm ki, bu, təkcə təhsil ocağı deyil, eləcə də bizim dost və qardaşlığımızın daha bir mərkəzi olacaq".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qərbi Azərbaycan İcmasının müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb

Qərbi Azərbaycan İcması və digər vətəndaş cəmiyyəti təşkilatlarının müraciəti BMT şuralarının rəsmi sənədləri kimi yayılıb.

Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından məlumat verilib.

"Ermənistanın apardığı etnik təmizləmə, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər nəticəsində azərbaycanlıların onilliklər ərzində məruz qaldıqları iztirab və məhrumiyyətlərə beynəlxalq ictimaiyyətin biganəliyi və ikili standartları ilə bağlı Qərbi Azərbaycan İcması və Azərbaycan Respublikasının digər vətəndaş cəmiyyəti təşkilatları 2023-cü il iyulun 28-də müraciət qəbul etmişdi. Həmin müraciət BMT Baş Assambleyası, Təhlükəsizlik Şurası və İqtisadi və Sosial Şuranın rəsmi sənədləri kimi yayılıb.

Sənədin sözügedən ali orqanların gündəliyinin irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınması, qaçqınların hüquqlarının qorunması, silahlı münaqişələrin qarşısının alınması və sülh quruculuğu, bəndləri altında yayılması Azərbaycanofobiyanın irqi ayrı-seçkiliyin və ksenofobiyanın bir növü və bir beynəlxalq problem kimi təsbit edilməsində və ona qarşı beynəlxalq mübarizənin formalaşdırılmasında mühüm rol oynayır", - deyə məlumatda bildirilib.

Vurğulanıb ki, Qərbi Azərbaycan İcması digər vətəndaş cəmiyyəti təşkilatları ilə birlikdə Ermənistanın xalqımıza qarşı törətdiyi hüquq pozuntularını işıqlandırmaqda və bəzi dairələrin bu məsələ ilə bağlı nümayiş etdirdiyi ikili standartların və riyakarlığın ifşasına davam edəcək.

# Belçika Azərbaycanın artan nüfuzunu həzm edə bilmir

## Azərbaycan əleyhinə səslənən fikirlər bu ölkənin qərəzli yanaşmasını ortaya qoyur

Avqustun 22-də Belçikanın xarici işlər naziri Hadija Labibin İrəvanda səsləndirdiyi fikirlərin tamamilə qərəzli olması hər kəsə məlumdur.



Bu, belçikalı nazirin cari ayda ölkəmizə qarşı ikinci belə riyakar açıqlamasıdır. Bundan əvvəl də Hadija Labib avqustun 12-də, guya, Laçın yolundakı "blokada" ilə bağlı reallıqdan tamamilə uzaq fikirlər səsləndirmişdi.

Görünür, Azərbaycanın tarixin arxivinə göndərdiyi Qarabağ münaqişəsinin mahiyyəti barədə məlumatsız olan Belçika həm də Ermənistanın manipulyasiya siyasətinə aldanıb. Qərbi Azərbaycan İcması da Belçikanın xarici işlər nazirinin səsləndirdiyi absurd fikirlərlə bağlı bəyanat verib. Belçikanın 30 il ərzində Ermənistanı Azərbaycan torpaqlarının işğalına son qoymağa çağırmadığı xarici işlər nazirinə xatırladılıb. Həmçinin icma Belçikanı ikili standartlar siyasətinə son qoymağa və ölkəmizin daxili işlərinə müdaxilə etməməyə çağırıb. Belçikanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələsinə münasibətdə selektiv yanaşmadan çıxış etməsi bu ölkənin riyakarlığından xəbər verir.

### Belçika İrəvanın quraşdırdığı saxta tamaşaların təsiri altına düşüb

İrəvanın saxta tamaşalarının təsiri altında ölkəmiz əleyhinə açıqlamalar verən, Ermənistana dəstək nümayiş etdirən Belçika Azərbaycanın Avropada artan nüfuzunu da həzm edə bilmir. Əks halda yerdə sürünən, hərbi, siyasi və iqtisadi gücü Vətən müharibəsindən bəri, ümumiyyətlə, sıfırlanan Ermənistanın qılığına girmək üçün əsassız bəyanatlar verməzdi.

Bu gün Azərbaycanın Avropanın enerji təminatında mövcud olan böhranlı vəziyyətin həlli üçün müsbət və əvəzsiz rol oynadığı heç kimə sirr deyil. Lakin Avropanın enerji təhlükəsizliyində ölkəmizin əsas iştirakçıya çevrilməsinin bir sıra dövlətlərin, eləcə də Belçikanın qısqanclığına səbəb olması da gözdən yayınmır. Ukrayna ilə Rusiya arasında gedən müharibə fonunda Avropanın qaz təchizatında yaranmış ciddi problemlər ölkəmizə enerji təminatçısı kimi olan ehtiyacı artırıb. Çünki müharibədən əvvəl Avropanın əsas qaz tədarükçülərindən biri olan Rusiyanın mavi yanacağının Avropa İttifaqına satışında xeyli azalma müşahidə edilir. Belə olan halda bütün diqqətlər Avropa İttifaqının strateji tərəfdaşı hesab edilən Azərbaycana yönəlib. Bununla da Bakının qaz bazarındakı rolu önə çıxıb.

Belçikalı nazir qısqanclığını xüsusilə erməni həmkarı ilə təmaslarda gizlədə bilmir. Tarixboyu ermənilərin terror, soyqırımı və müxtəlif formalı təxribatlarına məruz qalmış azərbaycanlıların hüquqlarını müdafiə etmək, qərbi azərbaycanlıların Ermənistana qayıdışı məsələsini rəsmi İrəvan qarşısında qaldırmaq əvəzində "Dağlıq Qarabağ və "blokada" kimi əsassız ifadələr işlədir. Qərbi Azərbaycan İcmasının ötən dəfəki bəyanatında da onlara bildirilmişdi ki, "Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı ərazi mövcud deyil". Lakin buna baxmayaraq, Belçika rəsmisi cəmi 10 gün sonra yenə də eyni səhvi təkrarlayıb.

Onu da xatırladaq ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan yaxın zamanlarda Belçikanın Ermənistanda səfirlik açacağı barədə anons verib. Bu da bir daha göstərir ki, Belçika-Ermənistan arasında intensivləşən təmaslar zamanı ölkəmiz əleyhinə səsləndirilən qeyri-obyektiv fikirlərin mənbəyi məhz İrəvandır.

### Kimlərinsə fikri, iddiası Azərbaycanı qətiyyən narahat etmir

Ölkəmiz Ermənistanın nümayiş etdirdiyi müxtəlif siyasi şoulara rəğmən, Qarabağda yaşayan sadə erməni sakinlərin Laçın yolundan sərbəst keçidini təmin edir, onların rahat və təhlükəsiz yaşayışına imkan yaradır, ən əsası isə bədnam qonşumuza təkmil sülh modeli təklif edir.

Bir sıra xarici dövlətlər və beynəlxalq təşkilatlar isə bu reallıqları görmək istəmirlər və Ermənistanın uydurduğu qondarma hekayələrə inanırlar. Belə olan halda da ölkəmiz əleyhinə əsassız fikirlər səsləndirir, heç kimə lazım olmayan boş kağız parçalarını qətnamə adı ilə yayır, müxtəlif bəyanatlar verirlər. Son həftələrdə Belçikanın nümunəsində bunun bir daha da şahidi olduq. Lakin bütün bunlar Azərbaycanı qətiyyən narahat etmir. 44 günlük Vətən müharibəsində öz gücü ilə 30 illik işğala son qoyan, BMT-nin qətnamələrinin icrasına təkbaşına nail olan Azərbaycanın güclü iradəsi bizə düşmən münasibət sərgiləyən bütün qüvvələrin fövqündə dayanır.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistan təxribatlarına son qoymalıdır

## Bu kimi hərəkətlərlə ermənilər özlərini məhvə aparırlar

Vətən müharibəsində müzəffər Azərbaycan Ordusunun şanlı Zəfəri qatil ermənilərə həmişəlik dərs olmalıdır.

Lakin görünən odur ki, Ermənistan nə müharibədə biabırçı məğlubiyyətindən, nə də regionda sülhün, sabitliyin tərəfdarı olaraq çıxış edən Azərbaycanın sülhsevərliyindən, humanistliyindən nəticə çıxarmaq niyyətində deyil. Belə olmasaydı, hiylədən, məkrdən, yalanlardan, iftiralardan əl çəkər, bir daha təxribatlar törətməyə cəhd göstərməzdi.

Təəssüflə qeyd edək ki, Ermənistan silahlı qüvvələri hər gün ayrı-ayrı istiqamətlərdən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tuturlar. Bu barədə Azərbaycan Müdafiə Nazirliyindən verilən məlumatlarda bildirilir ki, bölmələrimiz tərəfindən cavab tədbirləri görülür. Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri də təxribatlar törətməyə çalışırlar. Elə avqustun 22-də də qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Tərtər, Xocalı və Ağdam rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstərsələr də, ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırıldı.

Yüz illərdir ki, himayədarlarına sığınan, onların kölgəsində özünü böyük görən Ermənistan anlamaq istəmir ki, tutduğu yolla yalnız özünü məhvə aparır. Ermənistan rəhbərliyi əgər, doğrudan da, öz ölkəsinin gələcəyini, əhalisinin rifahını düşünürsə, özgə torpaqlarından gözünü çəkməli, dərhal Azərbaycanla sülh müqaviləsini imzalamalı, təxribatlar törətməyə son qoymalıdır.

Vətən müharibəsi gedişində güclü, qüdrətli orduya malik olmadığını Ermənistan özü də çox yaxşı bildi, dünya da bunu aydınca gördü. Bundan sonra öz xislətlərinə uyğun şoular düzəltməyə başladılar. Amma yenidən saxta göz yaşları ilə, vay-şivən salmaqla uzağa gedə bilməyəcəklər. Ermənilərin heç zaman genosidə uğramış xalq olmadığını, əksinə, özlərinin terrorlar, soyqırımılar törətdikləri dünyaya bəllidir. Tarixi faktlar ermənilərə uydurmalarını həqiqət kimi sırımağa imkan vermir.

Ermənistan bugünkü "blokada", "humanitar böhran" yalanları ilə də arzusunda olduğu mənzilbaşına yetməyəcək. Azərbaycan atalar sözlərində deyildiyi kimi: "Yalan ayaq tutar, amma yeriməz". Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurası avqustun 16-da Ermənistanın təklifi ilə Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın dövlət sərhəd-buraxılış məntəqəsinin, guya, "bağlanmasından" sonra yaranmış "humanitar böhran"ın müzakirəsi üçün keçirdiyi təcili iclas bunun bariz nümunəsidir. Məlum olduğu kimi, həmin müzakirələrdən Ermənistan heç bir siyasi dividend qazana bilmədi, necə deyərlər, əli boşda qaldı.

Əslində, ortada heç bir danışığa, müzakirəyə ehtiyac olmayan məsələ var. Həqiqət budur ki, aprelin 23-də Azərbaycan Laçın yolunda quraşdırdığı sərhəd-buraxılış məntəqəsi ilə bu yoldan maneəsiz və təhlükəsiz keçidi təmin edib. Bu sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq məqsədilə hüquq çərçivəsində yaradılıb. Ermənistanın Azərbaycan ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minə yaxın hərbçisinin rotasiyası, silah, sursat, mina və xarici terrorçuların daşınması, eləcə də həmin ərazidən təbii sərvətlərin qanunsuz çıxarılması, daşınması kimi qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl və açıq-aşkar sui-istifadə etməsinin qarşısını almaq məqsədilə yaradılan bu marşrut eyni zamanda təhlükəsizlik baxımından olduqca əhəmiyyətlidir.

Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin quraşdırılmasının sadə erməni əhalisinə yalnız xeyri var. "Blokada", "humanitar böhran" təbliğatı Ermənistana işğal, terror planlarına don geyindirmək, təcavüzkar ermənilərin yırtıcı, vəhşi simasını gizlətmək, beynəlxalq təşkilatlar qarşısında özünü yenə də yazıq göstərmək üçün lazımdır.

Havadarlarının dəstəyi ilə regionda sülh və əməkdaşlıq prosesinə mane olmağa, gərginliyi artırmağa cəhd edən Ermənistan müxtəlif istiqamətlərdə təxribatlar törətməklə, yalan informasiyalarla həm mətbuatda, həm də sosial şəbəkələrdə beynəlxalq ictimai rəyə mənfi təsir göstərməyə, çaşqınlıq yaratmağa çalışmaqla məkrli niyyətini reallaşdıra bilməyəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Otuz bir il əvvəl şəhid olan Məhərrəm Abbasov torpağa tapşırılıb

Otuz bir il əvvəl Şuşada - Daşaltı uğrunda gedən döyüşlərdə şəhid olan Məhərrəm Abbasov paytaxtın Nizami rayonunun Keşlə qəsəbəsində Şəhidlər xiyabanında torpağa tapşırılıb.





AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, hökumət, Müdafiə Nazirliyi və Nizami rayon ictimaiyyətinin nümayəndələri, o cümlədən döyüş yoldaşları, rayon sakinləri, qazilər, media nümayəndələri iştirak ediblər.

Şəhid Məhərrəm Abbasov əsgəri ənənələrə uyğun olaraq yaylım atəşi və Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidlərimizin ruhuna dualar oxunub, xalqımıza və dövlətimizə sülh və əmin-amanlıq arzulanıb, şəhidin məzarına tər güllər düzülüb, əklil qoyulub.

Şəhidin nəşinin büküldüyü üçrəngli bayraq oğlu İlkin Abbasova təqdim olunub.

### Atamı son dəfə görəndə 5 yaşım var idi...

Şəhidin övladı İlkin Abbasov jurnalistlərə müsahibəsində otuz bir ildir atasının qəbrini ziyarət etmək üçün məzarının olmamasının onlar üçün çox ağır olduğunu deyib: "Atamı son dəfə görəndə 5 yaşım var idi. Şəhid olduğunu bilirdik. Onun yoxluğu bizim üçün nə qədər acı olsa da, ən ağırı sarılıb ağlayacaq, dərdimizi bölüşəcək məzarının olmaması idi. Çox şükür ki, nəşinin qalıqları tapıldı və biz onu qəhrəman kimi dəfn edə bildik. Onun nəşinin qalıqlarının tapıldığını eşidəndə çox sevindik. Vətən müharibəsində əldə edilən Qələbə, şəhidlərimizin, qazilərimizin göstərdikləri qəhrəmanlıq sayəsində, inanıram ki, atam Məhərrəm Abbasov kimi ərazi bütövlüyümüz uğrunda canından keçən igidlərin ruhu şaddır. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə cansağlığı, ordumuzun hərbi qulluqçularına güc-qüvvət arzulayıram".

### Mən bu dünyada ad qoymadan getməyəcəyəm...

Şəhidlə bağlı xatirələrini bölüşən qardaşı Azad Abbasov deyib: "Məhərrəm məndən iki yaş böyük olsa da, onunla dost kimi idik. Bilmirəm, təsadüfdür, ya qismət, onun doğum tarixi fevralın 26-na, şəhadət tarixi isə yanvarın 26-na təsadüf etdi. Özündən sonra elə bir ad qoydu ki, uzun illər danışılacaq. Əsasən Şuşa, Malıbəyli, Quşçular istiqamətində döyüşlərdə çox qəhrəmanlıqlar nümayiş etdirib. Yaralananda üstündə olan əşyaları, saatını, hərbi biletini, övladlarının şəklini yaxın dostuna verib və bunları oğluna çatdırmağı vəsiyyət edib. O da gətirib vermişdi. Ayağındakı yarası o qədər ağır imiş ki, Daşaltıdan Şuşaya çıxmağı mümkünsüz imiş. Məhərrəm daxil yeddi yaralı döyüşçü Daşaltıda qalmışdı. Daşaltıda yeddi nəfərin nəşinin qalıqlarının tapıldığını eşidəndə onlardan birinin Məhərrəm olduğunu yəqin etdik. Bilmirik sevinək, ya kədərlənək, hisslərimiz çox qarışıqdır. Bircə onu bilirəm ki, Məhərrəm kimi qəhrəmanların ruhu uzun illərdən sonra sakitlik tapıb. Onun ruhu azad Şuşanın səmasında dolanır. Arzulayıram ki, bütün itkinlər tapılsın və doğmalarının gözləri yollarda qalmasın".

### Məhərrəm əsir düşməmək üçün özünü güllələyib

Şəhidin döyüş yoldaşı Sərxan Mehdiyev Məhərrəmlə tanışlığının ordumuzun yeni formalaşdığı dövrlərə - 1991-ci ilin noyabrına təsadüf etdiyini deyib. O, Məhərrəmi vətənpərvər, döyüşkən, qəhrəman, mərd, cəsarətli döyüşçü kimi xatırladığını diqqətə çatdırıb: "Onunla eyni istiqamətdə döyüşmüşəm. Son görüşümüz 1992-ci il yanvarın 25-də oldu. Bu dəfə hər birimiz müxtəlif istiqamətlərdə Daşaltı əməliyyatına göndərildik. Bu, Azərbaycan Ordusunun ilk hücum əməliyyatı idi və çox təəssüf ki, uğursuzluqla nəticələndi. Əməliyyata gedəndə bilirdik ki, oradan sağ çıxmaq şansımız azdır. Lakin hər şeyi gözə alaraq döyüşə atıldıq. Təəssüf ki, Məhərrəm kimi cəsur döyüşçü yoldaşlarımızı itirdik. Hətta şəhidlərimizin bir neçəsinin nəşini ərazidən çıxara bilmədik. Sonradan öyrəndik ki, ağır yaralanan Məhərrəm əsir düşməmək üçün özünü güllələyib. Şükürlər olsun ki, 31 ildən sonra onu adına layiq şəkildə dəfn edə bildik. Vətən müharibəsində Azərbaycan Ordusunun əldə etdiyi parlaq Qələbə həm bizim - Birinci Qarabağ müharibəsi qazilərinin illərdir çəkdiyi iztiraba son qoydu, həm də şəhidlərimizin narahat ruhlarını şad etdi".

Qeyd edək ki, şəhid Məhərrəm Abbasov Şuşa rayonunun Daşaltı kəndi ərazisində qalıqları aşkar edilmiş yeddi nəfərdən biridir.

# Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin 30 illik yubileyi təntənəli şəkildə qeyd edilib

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin şəxsi heyəti xidmətin 30 illik yubileyi münasibətilə Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin Fəxri xiyabandakı məzarını ziyarət edib, əziz xatirəsini ehtiramla anıb, Ulu Öndərin və görkəmli oftalmoloq akademik Zərifə xanım Əliyevanın məzarları önünə əklil və gül dəstələri qoyub.

Xidmətin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edərək Vətənimizin müstəqilliyi, xalqımızın azadlığı, sərhədlərimizin bütövlüyü uğrunda canlarını fəda etmiş mərd bacı və qardaşlarımızın xatirəsini ehtiramla yad edərək "Əbədi məşəl" abidə kompleksi önünə əklil qoyub.



Bu barədə AZƏRTAC-a Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən məlumat verilib.

Sonra xidmətin rəisi və rəhbər heyət xidmətin inzibati binasının foyesində Ulu Öndərə həsr olunmuş guşəyə baxış keçirərək Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyublar.

Daha sonra xidmətin inzibati binasında təntənəli yubiley mərasimi keçirilib.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev tədbirdə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarması, müdrik və uzaqgörən siyasətçi kimi ölkəmizin təhlükəsizliyinə xüsusi diqqət yetirməsi və xidmətin yaranması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Ulu Öndərin 1993-cü il 23 avqust tarixli 734 nömrəli Fərmanı ilə Xüsusi Dövlət Mühafizə Xidməti yaradılıb, onun əsasında isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 16 mart 2020-ci il tarixli 957 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti yaradılıb. Bu gün ölkədə etibarlı rabitə-kommunikasiya sisteminin yaradılması və informasiya təhlükəsizliyinin mühafizəsi üzrə mühüm vəzifələrin yerinə yetirilməsində xidmətin səmərəli rolunu vurğulayıb.

Tədbirdə xidmət rəisi dövlətimizin başçısı İlham Əliyevin hərtərəfli diqqət və qayğısı sayəsində Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin dövlət orqanları üçün xüsusi rabitənin, xüsusi təyinatlı informasiya-telekommunikasiya sistemlərinin və şəbəkələrin keyfiyyətli, dayanıqlı və təhlükəsiz fəaliyyətinin təmin edilməsi istiqamətində vəzifə borclarını layiqincə yerinə yetirməsini və xidmətin birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olmasını və onun qarşısında hesabat verməsini vurğulayıb.

Sonra Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi xidmətin bir sıra əməkdaşlarının təltif olunması haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamlarını oxuyaraq, bu münasibətlə təltif olunanları təbrik edib.

Sonda Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin kollektivi adından Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul edilib.

# Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan ermənilərə humanitar yüklərin çatdırılmasına dəstək verməyə hazırdır

*Əvvəli 1-ci səh.*

AzQAC istər Birinci Qarabağ savaşı, istər Vətən müharibəsi zamanı, istərsə də yeni növ koronavirus (COVID-19) pandemiyası dövründə Beynəlxalq Qızıl Xaç Komitəsi və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası ilə sıx əməkdaşlıq çərçivəsində zərərçəkmiş şəxslərə müvafiq humanitar yardımlar göstərib. 30 illik fəaliyyətləri dövründə hər iki beynəlxalq qurum respublikada humanitar sahədə kifayət qədər müxtəlif layihələr həyata keçirib. Təəssüflər olsun ki, son vaxtlar Qarabağ bölgəsində yaşayan erməni sakinlərin humanitar ehtiyacları mövzusu ətrafında qərəzli kampaniya aparılmasının şahidi oluruq.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bəyanatında bildirilib.

Bunu nəzərə alaraq, Azərbaycan Qızıl Aypara Cəmiyyəti bəyan edib: "Azərbaycan Qızıl Aypara Cəmiyyəti Azərbaycan Respublikasının Konstitusiyasına, "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Qanunun 3.0.1; 3.0.8; 3.0.9 maddələrinə, "Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Qanunun 6, 9, 15-ci maddələrinə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsinə, beynəlxalq hərəkatın "vahidlik" prinsipinə, beynəlxalq federasiyanın konstitusiyasına və mandatına uyğun olaraq, əməkdaşlarının və könüllülərinin köməyi ilə Ağdam-Xankəndi yolu ilə zəruri ərzaq, tibbi ləvazimat, dərman preparatları, geyim və s. ilə təchiz olunmuş istənilən humanitar yükün erməni millətindən olan sakinlərə çatdırılmasına dəstək verməyə hazırdır. Belə ki, bu humanitar missiyanı həyata keçirmək həm milli qanunvericiliyin, həm də Cenevrə konvensiyaları və ona edilmiş əlavələrin, həmçinin 1997-ci ildə qəbul edilmiş Sevilya Razılaşmasına 2022-ci ildə edilmiş müvafiq dəyişikliyin tələblərinə tam uyğundur. Həmin dəyişikliyə əsasən, humanitar yardımların həyata keçirilməsində aparıcı rol milli cəmiyyətlərə verilir. Bu humanitar missiyanın həyata keçirilməsi üçün milli cəmiyyət kimi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün potensialı səfərbər olunub".

# Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşları peşə bayramlarını qeyd ediblər

Azərbaycan Prezidentinin 2008-ci il 21 avqust tarixli Sərəncamı ilə hər il avqustun 23-ü xüsusi dövlət mühafizə xidməti əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur.

Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, peşə bayramı münasibətilə Agentliyin əməkdaşları Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstəsi düzülüb.

Sonra Şəhidlər xiyabanında Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş oğul və qızlarımızın unudulmaz xatirəsi yad edilərək məzarları üstünə güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Xüsusi dövlət mühafizə orqanlarının yaranmasının 30-cu ildönümü münasibətilə tədbir Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin akt zalında davam etdirilib.

Tədbirdə çıxış edən Agentliyin rəisi general-mayor İlqar Abbasov əvvəlcə Agentliyin əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edib. O qeyd edib ki, xüsusi dövlət mühafizəsi orqanlarının yaradılmasından 30 il ötür. Keçən 30 illik dövrdə xüsusi dövlət mühafizəsi orqanları zəngin tarixi və döyüş yolu keçib.



Bildirilib ki, Azərbaycanda dövlət səviyyəsində mühafizə xidmətinin qurulması işinə ilk dəfə 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin dövründə başlanılıb. 1919-cu il fevralın 18-də Azərbaycan Demokratik Xalq Cümhuriyyəti Parlamentinin 15-ci iclasında "Azərbaycan Parlamentinin Mühafizə Dəstəsi"nin yaradılması haqqında qanun qəbul edilib və polkovnik-leytenant Nağı Əlizadə Mühafizə Bölüyünün rəisi vəzifəsinə təyin edilib. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra isə mühafizə xidməti bir çox dəyişikliklərə uğrasa da, zəruri bir qurum kimi öz inkişafını davam etdirib. Mühafizə xidmətinin müasir tarixinin ən unudulmaz səhifələri Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü il iyunun 15-də xalqın çağırışı ilə Azərbaycanın müdrik oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə əsaslı dəyişikliklər edildi. O cümlədən 1993-cü il avqustun 23-də Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Mühafizə İdarəsi ilə Azərbaycan Respublikasının Milli Qvardiyası bazasında Azərbaycan Respublikasının Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi yaradıldı.

2002-ci il mayın 6-da Baş Mühafizə İdarəsi Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti adlandırıldı.

Ölkəmizdə irimiqyaslı enerji layihələrinin həyata keçirilməsi və həmin enerji layihələrinin təhlükəsizliyinin təmin edilməsi zərurəti ilə əlaqədar 2003-cü il mayın 31-də xüsusi dövlət mühafizəsi xidmətinin nəzdində İxrac Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsi yaradıldı.

Otuz illik dövrdə xüsusi dövlət mühafizə xidməti orqanlarının əməkdaşları yüksəkvəzifəli şəxslərin təhlükəsizliyinin, o cümlədən Azərbaycan Respublikası Prezidentinin mühafizəsi və ali dövlət hakimiyyət orqanlarının, neft və qaz kəmərlərinin və onların yerüstü qurğularının, digər strateji əhəmiyyətli obyektlərin etibarlı şəkildə qorunması sahəsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetiriblər. Həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə xüsusi dövlət mühafizə xidmətinin hərbi qulluqçuları şərəflə iştirak edib, qəhrəmanlıqlar göstəriblər. Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, baş verə biləcək terror-təxribat aktlarının qarşısının qətiyyətlə alınması kimi ən mühüm sahələrdə xidmətin hərbi qulluqçularının daim nümunəvi fəaliyyəti və fədakarlığı diqqəti cəlb edib.

Milli dövlətçiliyimizin qorunması işində mühüm yer tutan xüsusi mühafizə sistemində çalışan əməkdaşların fədakar və nümunəvi fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. Məhz xidmətin maddi-texniki bazasının gücləndirilməsi, əməkdaşların sosial rifahı, mənzil şəraitinin yaxşılaşdırılması, hər il əməkdaşların ali dövlət mükafatları ilə təltif olunması, yubiley medallarının təsis edilməsi həmin diqqət və qayğının bariz nümunəsidir.

Prezident İlham Əliyevin 2020-ci il 16 mart tarixli Fərmanı ilə xüsusi mühafizə sahəsində dövlət siyasətinin daha da təkmilləşdirilməsi məqsədilə xüsusi dövlət mühafizə xidməti ləğv edilib və yeni 3 qurum yaradılıb. Həmin qurumlardan biri kimi Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi ixrac neft və qaz boru kəmərlərinin mühafizəsi, o cümlədən mühafizə olunan şəxslərin və əksər strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi, mühafizə olunan şəxslər və obyektlərə qarşı ola biləcək təhlükələrin qarşısının alınması sahəsində qanunamüvafiq qaydada fəaliyyət göstərir. Beynəlxalq terrorizmin və sui-qəsdlərin geniş vüsət aldığı vaxta mühafizə işinin təkmilləşdirilməsi, elm və texnikanın nailiyyətlərindən istifadə olunması, yüksək peşəkarlığa malik kadrların hazırlanması agentliyin qarşısında duran əsas vəzifələrdir. Agentliyin kadr siyasəti həyata keçirilərkən müharibə iştirakçılarının agentlikdə həqiqi hərbi xidmətə qəbul edilməsinə xüsusi diqqət yetirilib, son bir il ərzində 63 nəfər İkinci Qarabağ müharibəsi iştirakçısı hərbi xidmətə qəbul edilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən islahatların və stabilliyin qorunub saxlanılması ilə bağlı mühafizə sahəsində qarşımıza qoyulan vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşları döyüş tapşırıqlarının yerinə yetirilməsində daha fəal mövqe tutmalı, dövlətə və dövlətçilik ideyalarına daha sədaqətlə xidmət göstərməlidirlər.

İlqar Abbasov qarşıda duran şərəfli və məsuliyyətli vəzifələrin icrası üçün agentliyin əməkdaşlarına tükənməz fiziki və mənəvi qüvvə arzulamaqla peşə bayramı münasibətilə şəxsi heyəti təbrik edib. Hər birinə möhkəm cansağlığı, uzun ömür, xidməti fəaliyyətində uğurlar, ölkəmizə sülh və əmin-amanlıq arzulayıb.

Sonda agentliyin xidmətdə fərqlənən və vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuları "Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının yaradılmasının 30 illiyi" yubiley medalı, digər medal və mükafatlarla təltif ediliblər.

# Azərbaycan diplomatiyasının daha bir qələbəsi

## Uğur diplomatiyası

### Azərbaycanın prinsipial mövqeyi Ermənistanın ümidlərini puça çıxarır



Azərbaycan dövləti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurları sayəsində tarixin inkişaf istiqamətini dəyişir. Bu istiqaməti bütün bəşəriyyət üçün faydalı olan tərəqqiyə, insanların rifahına xidmət edən yeni bir məcraya yönəldir.

Tutduğumuz yol isə yalnız sülhdən keçir. Bir məqamı da qeyd edək ki, bu gün Azərbaycan qlobal dünyamızın reallıqları ilə ən adekvat şəkildə davranan dövlətlərdəndir. Eyni zamanda respublikamızın uzun illər ərzində beynəlxalq aləmdə qazandığı etibarlı tərəfdaşlıq imici, başqa dövlətlərin Azərbaycana və ölkə rəhbərinə inamı xarici əlaqələrdə mövqelərimizi möhkəmləndirir, yeni nailiyyətlərimizə uğurlu yol açır.

Aparılan beynəlxalq siyasətin uğurlarında, təbii ki, respublikamızın tam müstəqil olmasının, istənilən məsələyə sərbəst və gerçək mövqeyini müəyyənləşdirməsinin də böyük rolu var. Çünki başqa dövlətlərin diktəsi ilə hərəkət edən hər hansı ölkə nə müstəqil siyasət apara bilər, nə də beynəlxalq aləmdə nüfuz qazanar.

Lakin hamıya o da məlumdur ki, məğlubiyyətə uğrayan Ermənistan, onların revanşist qüvvələri hələ də regionda formalaşan yeni arxitekturanı, olduqca pozitiv əməkdaşlıq imkanlarını, inkişafı və təhlükəsizliyi təhdid edir, açılan yeni perspektivlərə zərbə vurmağa çalışırlar. Ermənistanın bilərəkdən davamlı dezinformasiyası, beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün təxribat xarakterli kampaniyaları, sübutu olmayan iddiaları, əslində, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirməyə yönələn yaramaz avantüradır. Bütün bunlar planlaşdırılmış siyasi riyakarlığın təcəssümü, təxribat xarakterli və məsuliyyətsiz siyasi davranışlardır. BMT Təhlükəsizlik Şurasının keçirilmiş toplantısı da bu baxımdan istisna olmadı.

Azərbaycanın ermənilər yaşayan Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun, guya, "bağlanmasından" sonra yaranmış "humanitar böhran"ın müzakirəsi üçün BMT Təhlükəsizlik Şurasının avqustun 16-da keçirdiyi təcili iclas Ermənistanın növbəti ifşası ilə başa çatdı. İclasdan sonra Ermənistanın baş naziri Nikol Paşinyanın və onun timsalında bütün havadarlarının ironik vəziyyəti 44 günlük Vətən müharibəsi günlərində Azərbaycan Prezidentinin qələbə müjdələrindəki məşhur ifadədən dillərə düşən "Nə oldu, Paşinyan?" sualını xatırladır. Çünki rəsmi İrəvan bu dəfə də Azərbaycan diplomatiyasından sarsıdıcı zərbə aldı və BMT Təhlükəsizlik Şurasının bu təcili iclasına bağladığı bütün məkrli ümidləri puç oldu.

#### "Yardım karvanı" şousu iflasa uğradı

Ermənistan da, beynəlxalq aləmdəki havadarları da BMT-nin Təhlükəsizlik Şurasının iclasına böyük ümidlərlə getmişdilər. Bu toplantının təşkilində haqqın deyil, nahaqqın yanında olan və bu mövqeyi ilə bir çox Avropa dəyərlərinin üzərindən xətt çəkən Fransa xüsusilə böyük canfəşanlıq göstərirdi. Əslində, belə bir iclasın təşkili üçün hər detalı diqqətlə düşünülmüş süjetli ssenari də hazırlanmışdı. Ermənistanın Laçın istiqamətində yaratdığı "yardım karvanı" şousu bu ssenarinin başlanğıc epizodu idi. Onlar hesab edirdilər ki, bundan istifadə edib BMT-nin Təhlükəsizlik Şurasının iclasından Azərbaycana qarşı bir bəyanat qopara biləcəklər. Ermənistan və havadarlarının daha böyük niyyəti isə Azərbaycanın Laçın dəhlizini, guya, blokadaya alması, Dağlıq Qarabağ ermənilərini aclıqla soyqırıma məruz qoyması barədə uydurulmuş "faktı" BMT Təhlükəsizlik Şurasının müvafiq iclasında rəsmiləşdirərək Azərbaycana qarşı sanksiyalar tətbiq edilməsinə, Laçın dəhlizinin beynəlxalq gücdən istifadə edərək açılmasına nail olmaq idi.

Həyatın gərdişinə baxın ki, BMT-nin işğalçı qüvvələrin Azərbaycan ərazisindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını birmənalı şəkildə tələb edən müvafiq dörd qətnaməsinə və BMT Təhlükəsizlik Şurası sədrinin bu barədə bir sıra bəyanatlarına 30 ilə yaxın dövrdə açıq-aşkar məhəl qoymayan və sonda ordumuz tərəfindən torpaqlarımızdan qovulan Ermənistan indi Təhlükəsizlik Şurası üçün belə bir şou yaratmışdı. Ermənistanın iclasda xarici işlər naziri səviyyəsində iştirakı da rəsmi İrəvanın bu toplantı ilə bağlı böyük gözləntilərindən xəbər verirdi. Ermənistan diplomatiyası da, ermənilərin havadarlarının vəziyyəti dramatikləşdirmək üçün göstərdikləri canfəşanlıq da, onların birlikdə düşündükləri "humanitar böhran" ssenarisi də Nyu Yorkda tam iflasa uğradı.

#### Ermənistanın riyakarlığının ifşası

BMT Təhlükəsizlik Şurasındakı müzakirələrlə bağlı Ermənistanın rəsmi dairələrinin, erməni diasporu və lobbisinin, ermənipərəst dairələrin bütün səyləri nəticəsiz qaldı. Ermənistanın uydurma tezislərini faktiki olaraq heç bir ölkə dəstəkləmədi.

Ermənilərin gözləntilərinin əksinə olaraq BMT Təhlükəsizlik Şurasının müzakirələrində iştirak edən dövlətlərin heç biri xalqların öz müqəddəratını təyinetməsi prinsipindən, qondarma Dağlıq Qarabağ rejiminin tanınmasından, Qarabağda yaşayan ermənilərə qarşı, guya, aclıqla təhdid edilən soyqırımın törədilməsindən, ölümlə nəticələnən aclıq hallarının baş verməsindən bəhs etmədilər.

İclasın nəticəsini sadə dildə belə ifadə etmək olar ki, iştirakçılar toplaşdılar, mövzu ətrafında söhbətləşdilər və dağılışdılar. Çünki həqiqət o qədər üzdə və aydındır ki, burada Azərbaycanı ittiham etmək, Ermənistanın saxta iddialarını dəstəkləmək üçün heç bir əsas yoxdur. Regionda humanitar böhranla bağlı deyilənlər hər hansı reallığa əsaslanmır. Azərbaycan Qarabağdakı erməniəsilli vətəndaşlarına humanitar yardım göndərməyi təklif edir. Digər tərəfdən, rəsmi Bakı humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunun açıq olduğunu bəyan edir, yüklərin logistik baxımdan daha rahat, əlverişli olan bu yolla daşınması üçün hər cür şəraiti yaradır. Özü də indi deyil, hələ 2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan yüklərin Qarabağ bölgəsinə çatdırılması üçün öz logistik imkanlarını və infrastrukturunu Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) təklif edib. 2021-ci ildə yüklər BQXK tərəfindən həmin əraziyə çatdırılmaq üçün Bərdəyə daşınıb. Yalnız erməni tərəfinin yüklərdən imtina edərək BQXK-nın humanitar yardımı çatdırmasına imkan verməməsi buna mane olub.

Ermənistanın bölgədə yaratdığı ekoloji fəlakətə qarşı Laçın-Xankəndi yolunda Azərbaycan ekofəallarının etirazları başlayandan dərhal sonra isə Azərbaycan BQXK-dan yerli sakinlər üçün lazım olan malların siyahısını istəyib. Onların çatdırılması üçün bütün maddi-texniki və infrastruktur dəstəyi göstərməyə hazır olduğunu bildirib. BQXK isə Ermənistan tərəfinin Azərbaycan üzərindən hər hansı təchizatdan imtina cavabını çatdırıb.

İclasda digər faktlar da açıqlanıb. Eyni şəkildə Ermənistan BQXK-nın Bakıda yerləşən beynəlxalq tibb işçilərinin Xankəndiyə göndərilməsi təklifini də qəbul etməyib. Azərbaycanın dəstəklədiyi bu təklif BQXK-nın tibbi evakuasiyalarını asanlaşdıracaq, tibbi məsələlərin yerində həllinə kömək göstərəcəkdir. Göründüyü kimi, Ermənistan manipulyasiyalarla, riyakar məqsədlərlə buna da imkan verməyib.

Ən pisi isə, Qarabağ bölgəsində təxribatları davam etdirmək, sülh proseslərinə mane olmaq üçün Ermənistan BQXK-nın vasitəçiliyindən də sui-istifadə edib. Belə ki, rəsmi İrəvan Qarabağ bölgəsinə mikroçiplər kimi ikili təyinatlı texnologiyaları qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd göstərməklə presedentsiz addım atıb. BQXK özü də komitənin humanitar mandatına, beynəlxalq nüfuzuna ciddi şəkildə zərbə vuran bu faktı etiraf etməyə məcbur olub.

Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin BMT-nin Təhlükəsizlik Şurasının iclasında diqqətə çatdırdığı kimi, Ermənistanın BQXK-dan öz siyasi məqsədləri üçün sui-istifadə etməsi də açıq şəkildə göstərir ki, beynəlxalq mövcudluğun, o cümlədən BMT-yə bağlı təşkilatların artırılmasına dair çağırışların humanitar narahatlıqlarla heç bir əlaqəsi yoxdur, bunun əvəzinə məqsəd manipulyasiya etmək üçün daha çox alət əldə etməkdir.

#### Azərbaycanın bölgədə yaratdığı tarixi reallıq

Mövcud həqiqətləri beynəlxalq ictimaiyyətə bu qədər aydın və konkret şəkildə təqdim edə bilmək, uğurlu gedişlərlə Ermənistanın və havadarlarının oyununu pozmaq isə Azərbaycan diplomatiyasının möhtəşəm nailiyyətidir. Ölkəmiz yaranmış problemi imkana çevirdi. Bu iclas Azərbaycana Ermənistanın əsl simasını, manipulyasiya və təxribat cəhdlərini, aparılan sülh danışıqlarındakı qeyri-səmimi mövqeyini ifşa etmək üçün çox böyük bir fürsət oldu. Azərbaycan öz diplomatiyasının gücü ilə Ermənistanın bu xüsusda etdiyi hərəkətlərin əvvəlcədən planlaşdırılmış siyasi riyakarlıqdan irəli gəldiyini bütün dünyaya nümayiş etdirdi. Təhlükəsizlik Şurasına bu ölkənin müraciətinin aylar ərzində beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyanın tərkib hissəsi olduğunu göstərdi, regionda gərginliyin süni şəkildə artırılmasına yönələn çirkin hərəkətləri ifşa edildi.

Azərbaycanın Laçın dəhlizini, guya, blokadaya alması və Qarabağ ermənilərini aclıqla soyqırıma məruz qoyması iddiasını Ermənistanın BMT Təhlükəsizlik Şurasının gündəliyinə gətirərək faktiki heç bir nəticə ala bilməməsi, onun bu məsələni bir daha hansısa beynəlxalq təşkilatın gündəminə çıxarmaq ehtimalını da sıfra endirdi. Bu da Azərbaycan diplomatiyasının daha bir uğurudur. Belə parlaq nailiyyətlər birdənbirə yaranmır. Reallıq, haqq-ədalət nə qədər ortada görünsə də, birilərinin həqiqətlərə göz yummasına, ikili standartlar mövqeyindən çıxış etməsinə ötən onilliklərin tarixində az şahid olmamışıq. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvləri ilə məqsədyönlü iş aparması, ümumən, ölkəmizin regionda və dünyada getdikcə güclənən mövqeyi, tarixi zəfərimizlə bölgədə yaratdığı fürsətlər, dünya iqtisadiyyatı üçün yeni imkanlar burada öz rolunu oynayır.

Təsadüfi deyil ki, bir çox dövlətlərin nümayəndələri iclasdakı çıxışlarında dəmir yollarının açılması, alternativ yolların vacibliyini xüsusi vurğulayırdılar. Bu vacib tezislər Azərbaycanın regionda yaratdığı reallıqlardan irəli gəlir. Bütün bunlar Azərbaycan dövlətinin gücüdür, diplomatiyamızın mükəmməlliyidir. Məruzəçi dövlətlər tərəfindən Laçın dəhlizinə paralel Ağdam-Xankəndi yolunun istifadəsinin mümkünlüyünü bildirməsi də Azərbaycanın maraqlarına tam uyğundur.

#### Ölkəmizin mövqeləri daha da gücləndi

BMT Təhlükəsizlik Şurasının iclasının ana xəttinin ərazi bütövlüyü, suverenlik prinsipləri üzərində qurulması, əslində, Azərbaycanın mövqeyinin müdafiəsinə dəlalət edir. Müzakirələrdə iştirak edən dövlətlərin əksəriyyətinin balanslı çıxışları Azərbaycanın mövqeyini daha da gücləndirdi, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasının beynəlxalq hüquqa uyğunluğunu bir daha nümayiş etdirdi. Bununla BMT Təhlükəsizlik Şurası səviyyəsində Qarabağdakı separatçılara, Ermənistandakı militarist dairələrə və diaspordakı daşnaklara qəti xəbərdarlıq mesajı çatdırıldı ki, onların xam xəyallarındakı müstəqil "Artsax" adlı dövlət qurumu heç vaxt mövcud olmayacaq. Bu iclas Qarabağdakı Ermənistan silahlı qüvvələrinin tərk-silah edilməsinin vacibliyini də ortaya qoydu, ərazidə terror cəhdlərinin qarşısını almaq məqsədi ilə Azərbaycanın həyata keçirdiyi əməliyyatların legitimliyini də təsdiqlədi.

Bu iclasdan çıxan nəticələr bir daha göstərdi ki, monoetnik və etnik ayrı-seçkilik siyasəti yürüdən Ermənistanın ölkəmizin Qarabağ bölgəsində yaşayan ermənilərin Azərbaycana reinteqrasiyasını əngəlləməkdə əsas motivlərindən biri iki xalqın nümayəndələri arasında uğurlu birgəyaşayışının qarşısının alınmasıdır. Halbuki Azərbaycan çoxmillətli dövlətdir və ölkəmizdəki milli azlıqlar arasında heç bir ayrı-seçkilik yoxdur. Hər bir Azərbaycan vətəndaşı etnik mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq, konstitusiyamızla müəyyən edilmiş bərabər hüquq və öhdəliklərə malikdir.

BMT Təhlükəsizlik Şurasının iclası başqa həqiqətləri də üzə çıxardı. Məsələn, məlum oldu ki, Ermənistan hökuməti və erməni diasporu arasındakı ciddi narazılıqlar, anlaşılmazlıqlar gündən-günə dərinləşir. Bir daha təsdiq olundu ki, belə müzakirələrə, ümumiyyətlə, heç bir ehtiyac yox idi, məsələ BMT və digər platformalarda deyil, yerində həll olunmalıdır.

Ermənistan da, onun Fransa kimi havadarları da, Qarabağ erməniləri də bu cür fiaskolardan sonra, nəhayət, anlamalıdırlar ki, daha onlar üçün başqa yol qalmayıb. Şərtləri diktə edən indi Azərbaycandır və Qarabağ erməniləri Azərbaycanın şərtlərini qəbul edib haqq yoluna gəlməlidirlər. Çünki beynəlxalq hüquq da, haqq-ədalət də, güc də, aydın gələcək, xoşbəxtlik və rifah da məhz Azərbaycanın tərəfindədir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Ermənistan yeni müharibəyə hazırlaşır?

### Məğlub ölkə hərbi-siyasi təxribatlarından, məkrli oyunlarından əl çəkmək istəmir

Ermənistanın son bir aydakı hərbi-siyasi təxribatları göstərir ki, məğlub ölkə sülh müqaviləsi bağlamaqda qətiyyən maraqlı deyil. Sözdə Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını bəyan edən Ermənistan rəhbərliyinin əməldəki oyunları bunu bir daha təsdiqləyir.

BMT Təhlükəsizlik Şurasındakı biabırçı məğlubiyyətdən sonra ölkə ictimaiyyəti qarşısına çıxmağa üzü olmayan İrəvan rəsmiləri yenə də köhnə variantlara əl atırlar. Qarabağ və Şərqi Zəngəzurda hərbi təxribatlar törətməklə, sadəcə, diqqəti yayındırmağa çalışan rəsmi İrəvan bunu vəziyyətdən çıxış yolu kimi görür. Xalqı aldatmağa çalışanlar iddia edirlər ki, guya, Qarabağdakı separatçılara dəstək verməyin səbəbi yeni müharibəyə hazırlıqdır. Erməni xalqı isə yaxşı anlayır ki, İkinci Qarabağ müharibəsi dövründə olduğu kimi, bu gün də Ermənistanın Azərbaycan Ordusu qarşısına çıxara biləcək hansısa güclü qüvvəsi yoxdur. Sadəcə olaraq, Ermənistan yenə də havadarlarına "güvənərək" Azərbaycanı qıcıqlandırmağa çalışır. Demək olar ki, hər gün Qarabağ və Şərqi Zəngəzur istiqamətində mövqelərimiz atəşə tutulur və ya hansısa təxribatlar törədilir.

Son günlər ərzində separatçıların "fəaliyyəti"nə diqqət etsək, görərik ki, haylar ya Azərbaycan ərazisində müvəqqəti yerləşən Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə müxtəlif ərazilərə silah-sursat daşıyır, ya ordumuzun mövqeləri qarşısında fortifikasiya qurğuları quraşdırmağa cəhd göstərir, ya da mövqelərimizi atəşə tuturlar.

Təkcə son 3 gündə Azərbaycan Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumatlar əsasında separatçıların təxribatlarına nəzər yetirək.

Avqustun 21-i saat 07:05-dən 07:20-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri ordumuzun Xocalı rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb. Bundan başqa, səhər saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və Yuxarı Zağalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Zəylik və Bəzirxana yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutublar. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

Həmin gün Ermənistan tərəfindən mülki aviasiya vasitələrimizə yenidən radiomaneələr tətbiq olunub. Nazirliyin yaydığı məlumatda qeyd edilir ki, Azərbaycanın hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən yerli və xarici aviaşirkətlərinin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən radiomaneələrin tətbiqi yenidən intensivləşib. Hava məkanımızdan keçən uçuşların təhlükəsizliyinə təhdid yaratmaq məqsədilə qanunsuz silahlı birləşmələr növbəti təxribata əl atıblar. Belə ki, avqustun 21-i saat 10:15-dən 10:23-dək Füzuli-Bakı marşrutu üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarının ATR-45 tipli sərnişin təyyarəsinə radiomaneələrin tətbiqi nəticəsində GPS peyk naviqasiya sistemlərində fasilə yaranmışdı. Müdafiə Nazirliyi tərəfindən faktla bağlı Rusiya sülhməramlı kontingentinin komandanlığı məlumatlandırılsa da, heç bir tədbir görülməyib.

Qeyd edək ki, mülki aviasiyanın təhlükəsizliyinə radiotexniki müdaxilə qəbuledilməzdir və Beynəlxalq Mülki Aviasiya Təşkilatının müəyyən etdiyi qaydalara ziddir.

Avqustun 21-i saat 10:25-dən 10:30-dək Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz atıcı silahlardan atəşə tutulub. Hərbçilərimiz tərəfindən cavab tədbirləri görülüb. Axşan saat 19:45 radələrində erməni silahlı dəstələrinin ordumuzun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri ilə üzbəüz mövqelərini gücləndirmək məqsədilə "Ural" markalı hərbi nəqliyyat vasitəsində yerdəyişmə fəaliyyəti müşahidə edilib. Bölmələrimizin sayıqlığı nəticəsində qeyd olunan istiqamətdə qəti tədbirlər görülüb, yerdəyişmənin qarşısı alınıb.

Həmin gün axşam saat 22:50-dən avqustun 22-si saat 02:05-dək Dəvəli rayonunun Birəli, Qarakilsə rayonunun Saybalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Qaraağac və Laçın rayonunun Minkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərimiz müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutulub. Bundan başqa, avqustun 22-si saat 06:15-dən 07:20-dək qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Tərtər, Xocalı və Ağdam rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstərsələr də, ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

Nazirliyin digər məlumatında qeyd edilir ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdə qeyri-qanuni erməni silahlı dəstələri ordumuzun bölmələrinə qarşı terror-təxribat fəaliyyətlərini həyata keçirmək məqsədilə Qarabağ iqtisadi rayonunda təminat yolları və döyüş mövqelərimizə yaxın ərazilərdə texniki müşahidə və dinləmə vasitələri quraşdırıb. Hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin edilməsi məqsədilə görülən tədbirlər nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus 30-dək texniki müşahidə və dinləmə vasitəsi sıradan çıxarılıb.

Avqustun 22-də Ermənistan tərəfinin törətdiyi təxribat zamanı Azərbaycan Ordusunun hərbi qulluqçusu yüngül yaralanıb. Yaralı hərbi qulluqçumuza dərhal ilkin tibbi yardım göstərilib və o, hərbi tibb müəssisəsinə təxliyə edilib.

Avqustun 22-də ordumuzun Kəlbəcər rayonunun Yellicə və Gədəbəy rayonunun Daryurd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqeləri atıcı silahlardan fasilələrlə atəşə tutulub. Həmin gün separatçılar Xocalı rayonu istiqamətində yerləşən mövqelərimizin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

Avqustun 23-ü saat 02:10 radələrində Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz atıcı silahlardan atəşə tutulub. Hərbçilərimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

Bütün bu faktlar bir daha təsdiqləyir ki, düşmən öz xislətindən əl çəkmir. Lakin Ermənistan rəhbərliyi unudur ki, bu çirkinlikləri ilə heç nəyə nail ola bilməyəcək. Əslində, rəsmi İrəvana bəllidir ki, Azərbaycanla yenidən müharibəyə cəhd göstərsə, aqibəti yaxşı olmayacaq. Lakin sülh müqaviləsinin imzalanmasından yayınmaq üçün təxribatlar törətməyə məcburdurlar. Düşmən anlamalıdır ki, bunun da sonu olmalıdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə onlara öz mesajını göndərib.

Revanşistlər unutmamalıdırlar ki, bu gün Azərbaycan Bayrağı Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə, Laçında, Şuşada, Hadrutda, Talışda, Suqovuşanda və neçə-neçə yüzlərlə kənddə dalğalanır. O bayrağa uzaqdan baxmağa da qorxurlar. Bir gün gözlərini açıb Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər. Qarabağın erməni əhalisinin isə iki seçimi var - ya Azərbaycan Bayrağı altında yaşamalı, ya da ki çıxıb getməlidirlər.

Ali Baş Komandanın bu fikri, əlbəttə ki, İrəvana, revanşistlərə ciddi xəbərdarlıqdır. Həm Hayastan rəhbərliyi, həm də erməni xalqı yaxşı bilir ki, İlham Əliyev söz dedisə, gec-tez onu reallaşdırır. Sözü imzası qədər keçərli olan qalib Sərkərdə müharibədən öncə nə demişdisə, onların hamısını gerçəkləşdirdi. İndi isə İlham Əliyev deyir ki, bir gün haylar gözlərini açıb başları üzərində Azərbaycan Bayrağının dalğalanacağını görəcəklər. Bundan sonra ermənilərin özləri də etiraf etdilər ki, İlham Əliyevin bu fikirləri çox keçməz Hayastan KİV-inin manşet xəbərlərinə çevrilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Özbəkistanla Azərbaycan arasında fındıq yetişdirilməsi və emalı məsələləri müzakirə edilib

**Özbəkistan və Azərbaycan fındıq yetişdirmək barədə razılığa gəliblər. AZƏRTAC Özbəkistan KİV-lərinə istinadla xəbər verir ki, bu istiqamətdə Özbəkistanın kənd təsərrüfatı naziri Aziz Voitov və Azərbaycanın "Aqrarko" şirkətinin direktoru Cavid Kazımov arasında əməkdaşlıq memorandumu imzalanıb.**

Tərəflər həmçinin Özbəkistanda fındıq yetişdirilməsi və emalı məsələlərini müzakirə ediblər. "Görüşdə fındıq yetişdirilməsi sahəsində təcrübə mübadiləsinin aparılması ilə bağlı fikir mübadiləsi apardıq. Görüşün məqsədi fındığın yetişdirilməsi ilə yanaşı, onun emalı və ümumilikdə bağçılığın inkişafı təcrübəsi ilə tanışlıqla bağlı olub. Həmçinin kənd təsərrüfatı sahəsində Özbəkistan-Azərbaycan əlaqələrinin təşviqi və inkişafı məsələləri də müzakirə olunub", - məlumatda deyilir.

## E-sosial.az portalı ABŞ-nin beynəlxalq onlayn "dotCOMM Awards" müsabiqəsinin qalibi seçilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e-sosial.az portalı növbəti beynəlxalq uğur əldə edərək bu günlərdə ABŞ-nin beynəlxalq onlayn "dotCOMM Awards" müsabiqəsində "Dövlət saytı" nominasiyası üzrə "Platinium" kateqoriyasında qalib seçilib. https://enter.amcpros.com/dotcomm/entry/unified-social-registry-e-sosial-az/**




Müsabiqənin saytında bu barədə, habelə Nazirliyin DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi haqqında məlumat verilməklə, e-sosial.az portalına birbaşa keçid ("Unified Social Registry - e-sosial.az") imkanı yaradılıb. Saytda portala və pensiya kalkulyatoruna dair posterlər də təqdim edilir.

Yaradıcılıq və rəqəmsal ünsiyyətdə mükəmməlliyi müəyyən edən "dotCOMM Awards" müsabiqəsi internetin inkişaf edən alətlərini (interaktivlik, məzmun, dizayn, sosial media, video, proqramlar, bloqlar, saytlar, marketinq və reklam kampaniyaları) əhatə edir.

80-dən çox ölkənin iştirak etdiyi müsabiqədə Azərbaycanla yanaşı, ABŞ, İtaliya, Almaniya, Çin, Səudiyyə Ərəbistan və s. ölkələrdəki rəqəmsal alətlər qaliblər sırasında yer alıb. Bundan əvvəl də e-sosial.az portalı (həmçinin 2022-ci ildə işə salınan "Əmək və Məşğulluq" altsistemi) Beynəlxalq Telekommunikasiya İttifaqının "Çempion layihə" mükafatına layiq görülüb. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı isə e-sosial.az portalını qabaqcıl innovativ təcrübələrdən biri kimi təqdim edib.

2019-cu ildən istifadəyə verilən e-sosial.az vətəndaşlara onlar barədə sosial məlumatlara real vaxt rejimində çıxış və sosial-əmək hüquqlarının təminatına nəzarət imkanı verir. Təkcə bu ilin 7 ayında portaldan 4,6 milyon dəfə istifadə qeydə alınıb.

# Ruhlar şəhəri ruhumuzun şəhərinə çevrilir

**"Ağdam" günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir. Düz 30 il əvvəl Ağdam işğal olundu. 27 il sonra isə azadlığa qovuşdu. Rayonun 204 min nəfər əhalisi var idi və onların əksəriyyəti işğal dövründə respublikanın müxtəlif şəhər və rayonlarında məcburi köçkün kimi məskunlaşmışdı.**

İndi hər şey dəyişib. Artıq üçüncü ildir ki, Ağdam illərlə tamarzı qaldığı azadlığın həzzini yaşayır, evindən-eşiyindən didərgin düşmüş 126 mindən çox ağdamlının vətən, torpaq həsrətinə son qoyulub. 30 ilə yaxın bir zaman kəsiyində övladlarının əlindən tutaraq Ağdama gedib onun gözəlliklərini göstərib öyünə bilməyənlər, ağrılı və qürurlu yaddaşlarında ağdamlı günlərinin xatirə işığını yaşadanlar bu gün Ağdama qovuşurlar. Qarabağın aranı ilə dağlıq hissəsini birləşdirən Ağdam şəhəri vaxtilə qədim tarixi və mədəniyyəti ilə seçilirdi. Və bu seçkinlik də hər zaman ox olub mənfur erməninin gözünə batırdı. Düşmən fürsət gözləyirdi. Günlərin bir günü həmin fürsət əllərinə düşdü. Müharibənin qan-qadası ağdamlıların sevincinə su qatdı, arzuları gözlərində qaldı. Bəşəriyyətin ən ağrılı prosesi olan işğal ağrısına tuş gəldi ağdamlılar.

İşğal nəticəsində Ağdamın 1094 kvadratkilometr sahəsinin 846,7 kvadratkilometrini düşmən viran qoydu. Bütöv 1 şəhər, 1 qəsəbə, 82 kənd talan olundu, 27 il erməni vandallarının tapdağı altında inlədi. Bütün bunlar azmış kimi işğal illərində azğın ermənilər Ağdamı "özəlləşdirməyə" çalışdılar. Gah adını dəyişdirib Tiqranakert qoydular, gah şəhərdə muzey açdılar, gah da saxta dəlillərlə, guya, bu yerlərdə vaxtilə ermənilərin yaşadığını söylədilər. Bir yandan da Ağdamdakı maddi-mədəniyyət abidələrini dağıtdılar, şəhəri yerləyeksan etdilər. Bu, əslində, erməni faşistlərinin bəşəriyyətə yönlənmiş cinayəti idi. Xislətində dağıdıcılıq, talançılıq yuva qurmuş erməni, "Ağdam mənimdir" dediyin nədir, Ağdamı viranə qoyduğun nə? Halbuki Ağdamdakı abidələr təkcə Azərbaycanın qədim dövrünü yox, bütövlükdə Qafqazın tarixini öyrənmək baxımından çox əhəmiyyətli idi.

İşğaldan əvvəl Ağdamda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı, 15 şərab zavodu, 1 şampan zavodu, 10 istirahət mərkəzi var idi. Qarabağın ən böyük musiqi məktəbləri bu rayonda fəaliyyət göstərirdi. Ağdamın təhsil ocaqları, xüsusilə ötən əsrin ortalarında fəaliyyətə başlayan Dram teatrı, İkiillik Müəllimlər İnstitutu, Kənd Təsərrüfatı, Tibb və Musiqi texnikumlarında bütün ətraf rayonlar üçün kadrlar hazırlanırdı. Ağdam Azərbaycana görkəmli dövlət, elm, mədəniyyət xadimləri bəxş etmişdi: Xudu Məmmədov, Adilə Namazova, Rəşid və Ziyəddin Göyüşovlar və bir çox başqaları.



Sovetlər zamanı Ağdam təkcə Qarabağın deyil, bütövlükdə Azərbaycanın iqtisadi potensialı böyük olan rayonlarından idi. Rayonda ağır, yüngül və qida sənayesi inkişaf etmişdi. Zavodlar və kombinatlar, dəmiryol stansiyası və hava limanı günümüzə dağıntılar altında gəlib çıxıb. Şəhərin mərkəzində el arasında "Od dəyirmanı" kimi tanınan qədim malikanədə yaradılan Ağdam Çörək Muzeyi SSRİ-də birinci, dünyada ikinci idi. Bol məhsul verən münbit torpaqlarında kənd təsərrüfatı inkişaf etmişdi. O torpaqlar 20 nəfər Sosialist Əməyi Qəhrəmanı yetişdirmişdi.

Bu sadalananlar və sadalanmayanların fonunda təsadüfi deyil ki, Birinci Qarabağ müharibəsində Ağdam xalq arasında "Qəhrəman rayon" adlanırdı. 6570 şəhid verən Ağdamın 16 Milli Qəhrəmanı, 4950 qazisi var. Bir zamanlar var-dövləti ilə seçilən Ağdam şəhəri 2008-ci ildə "Lonely Planet" jurnalı tərəfindən "Qafqazın Hirosiması" adlandırılıb. 2010-cu ildə ərəb dünyasının ən nüfuzlu televiziya kanalı olan "Əl-Cəzirə" Ağdamı "Ruhlar şəhəri" siyahısına salıb. 2014-cü ildə alman bəstəkarı və pianoçusu Hauschka fortepiano üçün yazılan " Dağıdılmış Ağdam" əsərini bu şəhərə həsr edib.

44 günlük Vətən müharibəsindən sonra Ağdam canlanmağa başladı. "Biz elə bir şəhər, elə bir Ağdam quracağıq ki, bütün dünyaya nümunə olacaqdır", - deyən Prezident İlham Əliyevin birbaşa göstərişi və nəzarəti ilə Qarabağa qayıdış proqramı çərçivəsində Ağdamda dərhal bərpa-quruculuq işlərinə başlandı. Öncə yol tikintisindən başlayan bərpa-quruculuq işlərinin bir qolu olan 4 zolaqlı Bərdə - Ağdam avtomobil yolu regionun 20-dən çox yaşayış məntəqəsini əhatə edir. Bu nəhəng yolun inşası, demək olar ki, tamamlanmaq üzrədir. Layihə üzrə süni qurğular, yol qovşaqları və körpülər, həmçinin yol boyunca dairəvi suötürücü boru, düzbucaqlı su keçidi və zəruri yerlərdə yeraltı keçidlərin tikintisi 100 faiz yerinə yetirilib. Yolboyu beton bardyorların və yaşayış məntəqələrində nəzərdə tutulan piyada səkilərinin inşası və tamet daşlarının qoyuluşu sona çatdırılıb. Bu yol Qarabağ torpağına yeni nəfəs, yeni ab-hava gətirəcək və regionda iqtisadiyyatın sürətli inkişafına təkan verəcək.

Qarabağa nəfəs verəcək ikinci bir struktur da azad edilmiş ərazilərdəki sənaye parklarıdır. Cəbrayıl logistika və ticarət, Şuşa mədəniyyət və turizm, Kəlbəcər mədənçilik və turizm mərkəzləri olduğu kimi, Ağdam da sənaye mərkəzi olacaq. Ağdam Sənaye Parkının təməlini 2021-ci ildə Prezident İlham Əliyev qoyub. Qarabağın dirçəldilməsi və sənaye potensialının inkişafı məqsədilə yaradılan Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Sənaye parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası kimi hissələrə bölünüb. Burada tikinti materiallarının istehsalı müəssisələri yaradılır. Kənd təsərrüfatı məhsullarının qablaşdırılması ilə yanaşı, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, eləcə də şərab, yem və gübrə istehsal olunacaq. Parkda xidmət sahələrinin, soyuducu kameraların təşkili də planlaşdırılır. Hazırda sənaye parkında 19 rezident fəaliyyət göstərir. Avqustun ilk günlərindən rezidentlərin sırasına qoşulan sonuncu şirkət - "AS İstehsal" MMC 5,5 hektar ərazidə investisiya həcmi 5,4 milyon manat olan inşaat materiallarını istehsal edəcək. 95 nəfəri işlə təmin edən şirkətin məhsulları daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

Beləcə, viran edilmiş Ağdam daha da böyüyəcək, genişlənəcək. Vaxtilə 700-800 hektar ərazisi olan Ağdam şəhəri baş plana əsasən, 100 min sakin üçün planlaşdırılır. Plana görə, şəhərə onun tarixi hüdudlarından başqa əlavə olaraq bir neçə kənd də birləşdirilib. Əhalinin 70 faizi şəhər ərazisinin 30 faizində yaşayacaq.

Erməni vandallarının viran qoyduğu Ağdamın bərpasını gözləri ilə görmək, onun böyüyərək inkişafa gedən yolunda yaradılan şəraitə şahid olmaq üçün avqustun 16-da Azərbaycanda akkreditasiya olunmuş diplomatik korpus üzvləri və hərbi nümayəndələr Ağdama səfər etdilər. Səfər zamanı 45 ölkə və 12 beynəlxalq təşkilatı təmsil edən 100-ə yaxın diplomat və hərbçiyə 30 ilə yaxın davam etmiş dağıntılar haqqında məlumat verilib. Sonra onlar Ağdamdakı genişmiqyaslı quruculuq işləri, o cümlədən yol tikintisi, kommunikasiya və şəhərsalma prosesləri ilə yaxından tanış olublar.

Bu gün Ağdamda hər daş üstünə daş qoyulduqca Ağdamın gələcək ağ günləri üçün bir addım atılır. Bu addım Prezidentin 2020-ci ilin 23 noyabrında - qələbədən 15 gün sonra Ağdama səfəri zamanı söylədiyi sözləri təsdiq edir: "Biz Ağdam şəhərini bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edir. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası üçün də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərləri bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır".

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# Başlıca şərt hasilat olsa da...

## Qaz ixracının artması üçün həm də geniş nəql infrastrukturu vacibdir



**Bu ilin yanvar-iyul ayları ərzində Azərbaycanda 28,1 milyard kubmetr təbii qaz hasil edilib. Ötən ilin müvafiq dövrünə nisbətən qaz hasilatında 3,3 faiz, yəni 0,9 milyard kubmetr artım qeydə alınıb. Bu barədə Energetika Nazirliyindən operativ məlumatlara əsasən bildirilib.**

Məlum olduğu kimi, hazırda ölkəmizin əsas qaz hasilatı mənbəyi "Şahdəniz" yatağıdır. Həmçinin "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından neftlə bərabər səmt qazı da əldə edilir ki, onun xeyli hissəsi təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilir - Səngəçal terminalından SOCAR-a məxsus kəmərlə "Azəriqaz" sisteminə ötürülür. SOCAR özü də böyük həcmdə mavi yanacaq hasil edir. Ölkəmizin qaz mənbələrinin sırasına indi daha bir yataq da qoşulub. Keçən aydan Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə hasilata başlanıb. İHS mərhələsinin hasilat gücünü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

Beləliklə, ilin əvvəlindən ölkədə çıxarılan qazın 15,4 milyard kubmetri "Şahdəniz"in, 7,5 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 5,1 milyard kubmetri SOCAR-ın və 0,1 milyard kubmetri "Abşeron"un payına düşüb. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən cari il avqustun 1-dək isə AÇG-dən 211 milyard kubmetr, "Şahdəniz"dən 198 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın 139,9 milyard kubmetrə qədəri ixraca yönəldilib.

İxracdan söz düşmüşkən, qeyd edək ki, Energetika Nazirliyi cari ilin ötən 7 ayında xaricə qaz satışı barədə də məlumat verib. Bu göstərici 13,8 milyard kubmetr təşkil edib. Başqa sözlə, xaricə ötən ilin müvafiq dövrü ilə müqayisədə 7 faiz çox qaz ixrac olunub.

Hazırda Azərbaycan 6 ölkəyə - Gürcüstana, Türkiyəyə, İtaliyaya, Yunanıstana, Bolqarıstana və Rumıniyaya mavi yanacaq göndərir. Xatırladaq ki, Gürcüstan Azərbaycan qazını 2006-cı ilin sonlarından Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə alır. Türkiyəyə qaz bu ölkənin Gürcüstanla sərhədində CQBK-yə birləşdirilən 280 kilometrlik borularla (bütövlükdə Bakı-Tbilisi-Ərzurum adlanan kəmərlə) 2007-ci ilin yayından çatdırılır. 2018-ci ilin ortalarından Azərbaycan qazı qardaş ölkəyə həm də TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) nəql edilir.

3500 kilometrlik "Cənub qaz dəhlizi"nin birinci qoluna - genişləndirilmiş CQBK-yə bağlanan TANAP digər tərəfdə TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşur. Dəhlizin sonuncu seqmenti TAP qazı 2020-ci ilin son günündən Avropaya ixrac edir.

Cari ilin yanvar-iyul aylarında Avropaya 6,6 milyard kubmetr, Türkiyəyə 5,8 milyard kubmetr, Gürcüstana isə 1,4 milyard kubmetr qaz satılıb. Bu müddətdə Türkiyənin TANAP-la aldığı qaz 3,3 milyard kubmetr təşkil edib.

Bu gün Azərbaycan qaz hasil edən və onun ixracı üçün mükəmməl infrastruktura malik olan ölkə kimi diqqət mərkəzindədir. Avropanın mavi yanacağa tələbatı artdığından ölkəmizdən qaz idxal etmək istəyənlərin sayı getdikcə çoxalır. Keçən il Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış anlaşma memorandumuna əsasən, 2027-ci il üçün qaz təchizatımız iki dəfə artırılacaq.

İxracın həcminin artırılması və coğrafiyasının genişləndirilməsi isə kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Hasilatın artırılması ilə yanaşı, nəql infrastrukturu da təkmilləşdirilməlidir, yeni interkonnektorlar tikilməlidir və s. Bir sözlə, zaman "Cənub qaz dəhlizi"nin genişləndirilməsi məsələsini gündəmə gətirib. Bu dəhlizin Avropa qolu olan TAP-ın ötürücülük gücü artırılmalıdır. TANAP genişləndirilmədən isə bu, mümkün deyil. Keçən il Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) istifadəyə verilməsi ixrac coğrafiyasının genişləndirilməsinə bir töhfə oldu. Digər bir layihə də İon-Adriatik qaz boru kəməri olacaq ki, üç Balkan ölkəsini əhatə edəcək. Mövcud infrastukturun, eləcə də inşa edilən əlavə xətlərin yeganə məqsədi enerji təhlükəsizliyinin təmin olunmasıdır.

Bu il mayın 10-da Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı müraciətində həmin məsələyə bir daha toxunaraq demişdir: "Bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür. Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb. Bu gün Azərbaycan qazı 6 ölkəyə nəql edilir. Əgər hər şey plan üzrə gedərsə, bir il ərzində bu ölkələrin sayı 10-a çatacaq, ondan sonra daha da geniş coğrafiyanı əhatə edəcək. Bu, həm bizə gəlir gətirir, həm bizim siyasi çəkimizi, həm də təsir imkanlarımızı artırır".

İxracı artırmaq üçün potensialımız da var. "Şahdəniz" yatağından gözlənilən əlavə hasilat, AÇG-nin vəd etdiyi "dərin qaz" bunu deməyə əsas verir. Artıq məhsul verən "Abşeron"un ardınca hasilatını gözlədiyimiz "Qarabağ" və bir sıra digər perspektivli karbohidrogen mənbələrimiz də var. Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar isə 3 trilyon kubmetr civarındadır. Başqa sözlə, qarşıdakı 100 ildə Azərbaycan həm özünü, həm də bir sıra digər ölkələri qazla təmin etmək imkanına malikdir.

*Flora SADIQLI, "Azərbaycan"*

## Fərdi uçot sistemində qeydə alınan sığortaedənlərin sayı artıb

**Keçən ay fərdi uçot sistemində qeydə alınan sığortaedənlərin sayı 22 427 vahid və ya 1,16 faiz artaraq 1,95 milyon vahid təşkil edib.**

Bu barədə Dövlət Sosial Müdafiə Fondundan verilən məlumatda bildirilib ki, qeydə alınan sığortaedənlərin sayı hüquqi şəxslər üzrə 2 947, fiziki şəxslər üzrə 15 887, torpaq mülkiyyətçiləri üzrə isə 3 593 vahid artıb.

## Dövlət əmlakının özəlləşdirilməsindən büdcəyə 69 milyon manat vəsait daxil olub

**Bu ilin yeddi ayında ölkə üzrə dövlət əmlakının özəlləşdirilməsindən dövlət büdcəsinə 69 milyon manat vəsait daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,1 dəfə çoxdur.**

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin yaydığı məlumata görə, sözügedən aylar ötən ilin eyni dövrünə nisbətən 22,5 faiz az - 31 özəlləşdirmə hərracı keçirilib. Hərraclarda 8 səhmdar cəmiyyətinin səhm paketi (38,5 faiz az), 11 kiçik dövlət müəssisəsi (10 faiz çox), 2 yarımçıq tikili sahəsi (eyni) və 303 nəqliyyat vasitəsi (8,3 faiz az) özəlləşdirilib.

## Azərbaycan nefti ucuzlaşıb

**Dünya bazarlarında "Azeri Light" (CIF) markalı Azərbaycan nefti ucuzlaşıb.**

"Trend" xəbər verir ki, Azərbaycan neftinin 1 bareli üzrə qiyməti ötən günlə müqayisədə 1,1 faiz və ya 0,98 dollar azalaraq 88,68 ABŞ dolları təşkil edib.

Qeyd edək ki, 2022-ci ildə "Azeri Light" (CIF) markalı neftin bir barelinin orta satış qiyməti 103,58 ABŞ dolları təşkil edib. 2021-ci ilin göstəricisi ilə müqayisədə ötən il "Azeri Light" (CIF) nefti 44,6 faiz bahalaşıb.



ŞUŞA Türk Dünyasının Mədəniyyət Paytaxtıdır



● Qarabağ Azərbaycandır!



# Şuşa qəhrəmanlıq simvoludur

**Azərbaycan əsgərinin qəhrəmanlıq simvolu Şuşa həm də özündə şəhər mədəniyyətinin qədim incilərini yaşadan, tarixi abidələri ilə zəngin olan bir şəhərdir. Şəhər 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları ilə məşhurlaşıb. O cümlədən Şuşada dövlət xadimlərinə və tanınmış şəxslərə aid, eləcə də mühüm sənət və tarixi əhəmiyyət daşıyan 72 tarixi bina qorunur.**



Erməni işğalçıları 1992-ci ildə Şuşanı işğal etdikdən sonra bu tarixi şəhərin möhtəşəm abidələrinə ciddi ziyan vurub, qədim mədəniyyət nümunələrini məhv etməyə çalışsalar da, buna tam nail ola bilməyiblər. Ordumuz Şuşanı düşmən işğalından azad etdikdən sonra şəhərin infrastrukturu ilə bərabər, tarixi-memarlıq abidələri də bərpa edilərək onlara yenidən həyat verilir.

Tədqiqatlar zamanı məlum olub ki, bu abidələrin əksəriyyəti XIX əsrdə yaşamış memar Kərbəlayi Səfixan Qarabağı tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayi Səfərəli tərəfindən bəzədilmişdir. Xatırladaq ki, nəinki Şuşada, Qarabağda olan bir çox tarixi abidə, xüsusilə məscidlərin yaradılması memar Kərbəlayi Səfixan Qarabağinin adı ilə bağlıdır.

Şuşa şəhəri, onun tarixi abidələrinin qorunması həmişə dövlətimizin diqqət mərkəzində olub. Xüsusilə Ulu Öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra Şuşa şəhərinə olan diqqət daha da artırılıb. 1970-ci illərdə Azərbaycan hökuməti Şuşa haqqında iki tarixi qərar qəbul edib. Şuşanın tarixi-memarlıq abidələrinin yüksək bədii əhəmiyyəti nəzərə alınaraq, 1977-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Şuşa tarixi-memarlıq qoruğuna çevrilmişdir. Həmin qərarın icrası Şuşanın sosial və mədəni inkişafında böyük əhəmiyyət kəsb edərək şəhərdə yeni sənət ocaqlarının yaranmasına, bərpa, tikinti və yaşıllaşdırma işləri sahəsində yüksək nəticələrə səbəb olmuşdur. Bir sözlə, hər ötən il Şuşa gözəl bir yadigarı ilə yaddaşlara iz qoya bilib.

Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsindən sonra Müzəffər Ali Baş Komandanın işğaldan azad olunmuş torpaqlara ilk səfəri məhz Şuşadan başlanmışdır. 2022-ci il "Şuşa ili", daha sonra Şuşa türk dünyasının mədəniyyət paytaxtı elan edilmişdir.

Hazırda mədəniyyətimizin paytaxtı, tarixi memarlıq abidələr muzeyi olan Şuşada sürətlə bərpa-quruculuq işləri aparılır. Erməni vandalizminin hər cür eybəcərliklərini yaşamış şəhərin tarixi abidələrinə yenidən can verilir. Tarixi-dini abidələr, Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidləri bərpa edilərək ikinci həyatlarını yaşayırlar. "Qazançı" kilsəsində təmir-bərpa işləri davam edir.

Şuşada bərpa edilən tarixi abidələr sırasına şair və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini, onun yenidən qurulmuş büstünü, Azərbaycan mədəniyyətində, incəsənətində müstəsna yeri və rolu olan görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Natəvanın heykəllərini, Milli Xalça Muzeyinin Şuşa filialını, Yaradıcılıq Mərkəzinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışını, Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin bərpa olunan məzarını, Mehmandarovların malikanə kompleksini, Sadıqcanın ev-muzeyini və digər abidələri əlavə etsək, böyük bir siyahı alınar.

Şuşa Azərbaycan əsgərinin canı, qanı ilə ucalan bir qəhrəmanlıq abidəsidir. İndi bu abidəyə baxdıqca daha çox qürurlanır, iftixar duyuruq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Peşəkarlar yurdu

# Sənətkarlar şəhəri

**Bu qədim, əsrarəngiz şəhər salındığı ilk illərdən diqqət mərkəzində idi. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhəri xanlığın paytaxtı oldu. Həmin dövrdə - XVIII əsrdə Azərbaycanın ən mühüm şəhərlərindən biri kimi tanınmağa başladı, Şuşa tezliklə əhəmiyyətli iqtisadi mərkəzə çevrildi.**

Qarabağ xanlığının ayrı-ayrı yerlərindən Şuşaya sənətkarlar dəvət olundu. Sənətkar məhəllələri yaranmağa başladı. Araşdırıcılar o zaman Şuşaya gələn silah ustalarına, dəmirçilərə, xalçaçılara və digər ustalara işləmək üçün lazımi şərait yaradıldığını qeyd ediblər. Belə ki, onlar şəhərin ən gözəl məkanlarında, ən yaxşı evlərdə yaşayırdılar. Zaman keçdikcə Şuşada sənətkarlar şəhərin ən zəngin sakinləri hesab olundular.

Şuşada Pənahabadi adlanan gümüş sikkə zərb olunurdu. Araşdırmalara görə, Şuşa İbrahimxəlil xan və Mehdiqulu xanın hakimiyyəti illərində iri sənətkarlıq və ticarət mərkəzinə, Qafqaz, Rusiya, Türkiyə, Almaniya, Böyük Britaniya və digər ölkələrdən idxal, eləcə ixrac üçün iri bazaya çevrilib. Şuşa sənətkarlarının hazırladıqları məmulatlardan almaq üçün bir çox ölkədən tacirlər gəlirdilər. Yüksələn tələbat şəhərdə kiçik müəssisələrin, sənətkarlıq sexlərinin çoxalmasına, keyfiyyətli məhsullar hazırlayan ustaların, usta köməkçilərinin sayının artmasına təkan verirdi. Məlumata görə, XX əsrin əvvəllərində Şuşada 870 emalatxana, 2 minə yaxın dükan var idi. 1830-cu ildə Şuşada 200 tacir ailəsi, 266 sənətkar yaşayırdı. 1897-ci ildə 1 416 tacir, 2 738 sənətkar qeydiyyata alınmışdı. Sənətkarların sayı 10 dəfə, tacirlərin sayı 7,5 dəfə artmışdı.

Şuşanın təbii sərvətləri, zəngin florası və faunası da burada müxtəlif sənət sahələrinin inkişafına şərait yaradırdı. Sıx meşələrindən seçilən müxtəlif növ ağaclardan mebel və musiqi alətləri hazırlanırdı. Yamaclarında, dağlarında, meşələrində bitən gül-çiçəyinin hərəsi bir gözəllik nümunəsi, can dəmanı idi. Xalçaçılara isə həmin çiçəklər, otlar, kollar, ağaclar həm də təbii boyaq hazırlamaq üçün lazım idi.

Şuşada sənətkarlığın inkişafı kənd təsərrüfatının da genişlənməsinə təsir göstərirdi. Xalçaçılıq qoyunçuluğun, dabbaqlıq maldarlığın inkişafına təkan verirdi.

XIX əsrin əvvəllərində Şuşa artıq sənətkarlar şəhəri kimi tanınırdı. Şuşa nəqqaşları, bənnaları, daşyonanları, memarları, dulusçuları, sərracları, xəttatları, silah ustaları, zərgərləri, toxucuları, papaqçıları, çəkməçiləri, dərziləri, oyma ustaları, dülgərləri, dabbaqları və başqa peşələrdə ixtisaslaşmış ustaları ilə məşhur idi.

Araşdırıcıların qənaətincə, bu unikal şəhərdə xalçaçılığın və toxuculuğun inkişafı xüsusilə yüksək səviyyədə idi. XIX əsrin əvvəllərində Şuşada müxtəlif növ parçalar istehsal edən 500 toxucu dəzgahı var idi. İpəkçiliyin inkişafı fabriklərin açılması ilə nəticələnirdi. Məlumata görə, artıq XIX əsrin 60-cı illərində şəhərdə illik istehsal gücü 78 min rubla bərabər olan 16 ipəksarıma fabriki fəaliyyət göstərirdi ki, bu, o zaman üçün böyük nailiyyət sayılırdı.









Şuşada az qala bütün ailələrdə tikiş, xalçaçılıq və toxuculuq dəzgahları var idi. Rəngkarlıq, dəri emalı, sabun bişirmə, eləcə də xırda dülgərlik işləri evlərdə görülürdü. Zaman keçdikcə mahir, işgüzar ev ustaları peşəkar sənətkarlar kimi püxtələşirdilər.

Şuşalı zərgərlərin yüksək əyarlı qızıl və gümüşdən hazırladıqları müxtəlif məmulatlara - üzük, sırğa, boyunbağı, bilərzik, toqqa və başqa məmulatlara xarici bazarlarda tələbat var idi və baha qiymətə satılırdılar.

Hələ yüzillər öncə Şuşada və ətraf ərazilərində zəngin daş yataqlarının, karxanaların olması burada daşişləmə sənətinin inkişafına imkan yaradıb. XX əsrin əvvəllərində Şuşada daşişləmə sənətinin ayrı-ayrı sahələri - bənnalıq, heykəltaraşlıq, şəbəkəçilik, oymakarlıq və digər sahələrdə çoxlu usta var idi. Sənətkarlar daşdan hörgü daşı, tac və sütun daşı, bəzək daşı, künc və zeh daşı, tavan daşı, minarə və günbəz üçün daş, su daşı, kirkirə daş, xırman daşı, duz daşı, darvaza daşları, dəyirman daşları, məzar daşları və digər məmulatlar hazırlayırdılar. Tədqiqatlar nəticəsində o da məlum olub ki, Şuşada istehsal edilən daşlar İran bazarında çox yüksək alıcılıq qabiliyyətinə malik idi.

Tədqiqatçılar Qarabağda papaqçılıq sənətinin mərkəzinin Şuşa şəhəri olduğunu qeyd ediblər. Şuşa sənətkarlarının hazırladıqları "Girvənkə", "Qarabağı", "Dairəvi", "Buxara", "Şirazi" papaqları Azərbaycanın müxtəlif bazarlarında, eləcə də Şərq ölkələrində satılırdı.

Şuşada sənətkarlığın boyaqçılıq, xalçaçılıq, keçəçilik, papaqçılıq, misgərlik, dəmirçilik, başmaqçılıq, şərabçılıq, dəriçilik, dərziçilik, sərraclıq, nalbəndlik, daşişləmə və digər qədim sənət sahələri XX əsrin ikinci yarısında da fəaliyyət göstərirdi.

Şuşa XIX əsrin axırları və XX əsrin əvvəllərində Qafqazın musiqi mərkəzi kimi də şöhrətləndi. Azərbaycanda tar, kamança, ud, nağara və başqa musiqi alətləri istehsal edən yeganə Şərq Milli Musiqi Alətləri Fabriki məhz Şuşada açıldı. 100-dən çox ustanın çalışdığı fabrikin məhsulları yalnız respublikamızda deyil, Orta Asiya, Gürcüstan, Qazaxıstan, Dağıstan və başqa sovet respublikalarına, həmçinin Hindistan və Yaxın Şərq ölkələrinə ixrac edilirdi. 1992-ci ilin mayında Şuşa təcavüzkar ermənilər tərəfindən işğal olunduqdan sonra vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini, eyni zamanda Qafqazda yeganə Şərq Musiqi Alətləri Fabrikini də uçurub dağıtdılar, nadir sənət nümunələrini taladılar...

2020-ci il noyabrın 8-dən - müzəffər Azərbaycan Ordusunun zəfərindən bəri Şuşa azaddır. Qədim və özünəməxsus, zəngin ənənələrə malik Şuşanın sənətkarlıq müəssisələrinin fəaliyyətləri tezliklə bərpa olunacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Ziyalılarımız

# Qəzəl ədəbiyyatının ustadlarından biri

**XIX əsrin sonu - XX əsrin əvvəllərində Şuşada, sonra isə Bakının zəngin ədəbi mühitində özünə layiqli yer tutmuş İbrahim Məşədi Əbdül oğlu Musayev dövrünün tanınmış simalarından idi. O, daha çox İbrahim Tahir Qarabaği təxəllüsü ilə şöhrət tapmışdı. Zəngin və çoxcəhətli yaradıcılığa malik İbrahim Tahirin poetik irsi, publisistikası sağlığında kitab halında nəşr olunmayıb. Yalnız 2013-cü ildə, ölümündən düz 70 il sonra ayrı-ayrı poetik əsərləri müxtəlif mətbuat orqanları və arxivlərdən toplanaraq "Elm və təhsil" nəşriyyatında işıq üzü görüb.**



İbrahim Tahir Qarabaği 1869-cu ildə Şuşa şəhərində anadan olub. İlk təhsilini şuşalı Molla Əli Xəlifənin məktəbində alıb. Burada ərəb və fars dillərini mükəmməl öyrənib. Elə bu məktəbdə təhsil aldığı illərdə də onda ədəbiyyata dərin həvəs yaranır. Fars şairlərinin əsərləri ilə yaxından tanış olur. 20 yaşından isə özü də Tahir (ərəbcə pak, təmiz) təxəllüsü ilə şeir yazmağa başlayır.

XIX əsrdə Qarabağ ədəbi mühitində böyük nüfuz sahibi olan Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" əsərində o zaman hələ 22-23 yaşlarında olan bu gənc şair haqqında ətraflı söhbət açılır, onun fars dilində 22, Azərbaycan dilində isə 4 şeiri verilir.

İbrahim Tahir Qarabaği gənc yaşlarından elmə, maarifə dərin rəğbət bəsləyir, mətbuat orqanlarına böyük maraq göstərirdi. Məhz bu marağın nəticəsi olaraq o, XX əsrin əvvəllərində Bakıda nəşr olunan əksər qəzet və jurnallarla əlaqə yaradır. Ardıcıl olaraq həm publisistik məqalələri, həm də kəskin ruhlu, ictimai məzmunlu şeirləri ilə həmvətənlərini cəhalətə, geriliyə qarşı mübarizəyə səsləyir. Onların istiqlal arzularını tərənnüm edir.

Zəmanəsinin tanınmış maarifpərvərlərindən biri kimi şair müəllimlik fəaliyyəti ilə məşğul olmaq üçün müvafiq dövlət qurumlarından icazə alır. 1926-cı ilə qədər Şuşadakı "Nərimaniyyə", "Bünyadiyyə", "Kamaliyyə" və Şuşa birinci qızlar məktəbində tarix müəllimi kimi çalışır. Bakıya köçdükdən sonra isə nəşriyyat sistemində işləyir. Daha çox tərcüməçilik fəaliyyəti ilə məşğul olur.

O dövrdə Azərbaycan ziyalıları müəyyən qütblərə bölünmüşdülər. Məsələn, "Füyuzat" jurnalı ilə "Molla Nəsrəddin"çilər arasında müxtəlif məsələlərə münasibətdə kəskin fikir ayrılığı var idi.

İbrahim Tahir Qarabaği isə bütün qütblərdən olan ziyalılarla yaxın münasibət saxlayırdı. Onun Cəlil Məmmədquluzadə, Əhməd bəy Ağaoğlu kimi görkəmli ziyalılarla sıx dostluq əlaqələri vardı. Şairin irsini ardıcıl şəkildə nəzərdən keçirən tədqiqatçılar ötən əsrin 20-ci illərinin ortalarından başlayaraq Bakı mühitinin onun yaradıcılığına müsbət təsir göstərdiyini yazırlar. Məhz bu dövrdən etibarən onun fəaliyyət çevrəsi genişlənir, mövzu dairəsi çoxşaxəli istiqamətlərə yönəlir. Bu həm də elə bir dövr idi ki, ötən əsrin 30-cu illərinə doğru klassik Şərq və Azərbaycan şairlərinin irsinə münasibət müsbət mənada dəyişir, tərcümə sənətinin inkişafına təkan verilir və fars dilini mükəmməl bilən tərcüməçi şairlərə böyük ehtiyac yaranırdı. İbrahim Tahir Qarabaği də bu prosesin fəal iştirakçılarından idi. Təsadüfi deyil ki, həmin illərdə dahi fars şairi Əbülqasim Firdovsinin "Şahnamə" əsərinin ilk tərcüməçilərindən biri məhz o olmuşdu. İbrahim Tahirin mükəmməl fars dili biliklərinə, şairlik istedadına və tərcüməçilik bacarığına bələd olan müəyyən təşkilatların rəhbərləri son dərəcə məsuliyyətli bir dövrdə "Şahnamə"nin iki irihəcmli hissəsinin, "Zöhhak" və "Gavə", eləcə də "Səyavuş" hissəsinin hərfi tərcüməsi ilə yanaşı, onların Azərbaycan dilində nəzmə çəkilməsi işini də İbrahim Tahirə həvalə etmişdilər. O, üzərinə düşən vəzifəni uğurla yerinə yetirmiş, 1934-cü ildə həmin dastanlar Ruhulla Axundovun elmi redaktorluğu ilə 5000 tirajla nəşr edilmişdi. Bu tərcümə işinin yüksək uğurundan irəli gəlirdi ki, "Şahnamə"nin müvafiq hissələrinin ardınca Ömər Xəyyam, Xaqani Şirvani, Nizami Gəncəvi, Hafiz Şirazi, Əlişir Nəvai və başqa klassik Şərq şairlərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi də məhz ona etibar edilmişdi.

İbrahim Tahir Qarabaği öz zəmanəsini qabaqlamış şair idi. Şeirlərində ictimai-siyasi motivlər xüsusi yer tuturdu. O, dünyaya, insana, cəmiyyətə açıq bəsirət gözü ilə baxırdı. Bütün ictimai bəlaların kökünü insanların cəhalətdə yaşamasında, irfana, elmə, mədəniyyətə nifrətlə yanaşmasında, qəflət yuxusuna qapılıb qalmasında görürdü. Yalnız öz mənfəətini düşünən, başqalarının fəlakətinə zərrə qədər də acımayan cılız xislətli insanları qınayırdı.

Zahirdə millət adından danışan, özünü millətsevər kimi qələmə vermək istəyən insanları da şair satira atəşinə tuturdu. Onları heç olmasa müsəlman adətlərinə riayət edərək möhtacı olanlara kömək göstərməyə çağırır, bunu savab iş kimi dəyərləndirirdi.

Üslub etibarilə romantiklərə, daha çox romantizmin maarifçilik qanadına yaxınlaşan İbrahim Tahir Qarabağinin əsərlərinin böyük bir qismini qəzəllər təşkil edir. Tədqiqatçıların fikrincə, şairin məhəbbət mövzusunda yaratdığı qəzəllər həm dil-üslub, həm də məzmun və sənətkarlıq cəhətdən klassik poeziyanın qəliblərinə yüksək səviyyədə cavab verir. Qəzəllərinin parlaq bədii xüsusiyyətləri ilə İbrahim Tahir Qarabaği Azərbaycanın zəngin ənənələrə malik qəzəl ədəbiyyatının ustadlarından biri sayılır.

Əfsuslar olsun ki, şairin əsərlərinin bir qismi itib-batıb. Bir qismini isə məlumatlara görə, repressiya illərində təzyiqlərdən qorunmaq üçün özü yandırıb. Çünki repressiya dalğası İbrahim Tahir Qarabağinin də ailəsindən yan keçməmişdir. Şairin böyük oğlu Cəmil Berlində təhsilini bitirib, 1926-cı ildə Vətənə qayıdaraq çalışmağa başlayıb. Kiçik oğlu Əli Musayev Azərbaycanın görkəmli rejissorlarından olmuş, çəkdiyi qısametrajlı sənədli filmlərlə tanınmışdı. Ortancıl oğlu Əzizin isə taleyi çox faciəli olmuşdu. 1929-cu ildə G.V.Plexanov adına Xalq Təsərrüfatı İnstitutunun Mühəndis-iqtisad fakültəsini bitirən Əziz "Azneftzavodlar" trestinin rəis müavini vəzifəsinə qədər yüksəlmiş, amma sonra günahsız yerə tutularaq 1941-ci ilin 28 iyulunda güllələnmişdi. Deyilənə görə, şair də əlyazmalarının bir qismini oğlu tutulan dövrdə sobada yandırmışdır.

*İ.ƏLİYEVA,*
*"Azərbaycan"*

● Fotoetüd



# Çətin sınaq

## "Qarabağ" bu axşam Sloveniyada Avropa Liqasının pley-off mərhələsində ilk oyununa çıxacaq

**Bu gün diqqətlər Sloveniyaya yönələcək. UEFA Avropa Liqasının pley-off mərhələsinin ilk qarşılaşmasında Ağdamın "Qarabağ" klubu səfərdə "Olimpiya"nın qonağı olacaq. Lyublyanada tribunalarda anşlaq olacaq, ekran qarşısında milyonların qəlbi "Qarabağ"la döyünəcək. Çətin səfər matçında "Qarabağ"ı nələr gözləyə bilər?**

**UEFA Avropa Liqası**
**Pley-off, ilk oyun**

22:00 "Olimpiya"(Sloveniya) - "Qarabağ" (Azərbaycan)
*Baş hakim:* Georgi Kabakov (Bolqarıstan)
*Lyublyana, "Stojitse" Stadionu*



"Qarabağ"ın rəqibi olacaq "Olimpiya" oyun planı olaraq futbolçuları bütün zonalarda bir-birinə sıx oynayan kollektivdir. Ağdam klubunun rəqibi matçın gedişinə uyğun olaraq 4-3-3, bəzən də 4-4-2 oyun formatına üstünlük verir. Topu oyuna daxil edərkən mərkəz hücumçuları çox önəmli rol alırlar. Belə ki, avstriyalı hücumçu Raul Floruç müdafiənin mərkəzindən edilən ötürmədən sonra irəli çıxaraq ani toxunuşla cinah oyunçularına boş zonalar yaradır. Xüsusilə portuqaliyalı Ruy Pedru ilə tandemi yaxşı alınır. Cinahlardan hücumlara çox aktiv qoşulurlar. Sürətli oyunçu profillərinə sahibdirlər.

Topun olduğu zonaya 3-4 oyunçu ilə birdən basqı etməyə çalışırlar. Bu rəqibə qalib gəlmək üçün ön zonaya pressinq tətbiq etmək daha faydalı olardı. Xüsusilə hücuma qoşularkən "Qarabağ" geri dönən toplara da zamanında sahib çıxmalıdır. Əks halda "Olimpiya" sürətli keçidlərlə təhlükəli epizod yaratmaq bacarığı yüksək olan kollektivdir.

Meydan sahibləri heyətdəki texnikalı futbolçuların da potensialından yararlanaraq təkbətək mübarizədə üstün ola bilirlər. Standart vəziyyətlərdə də yaxşı təsir bağışlayırlar. Yaranmış epizodları qola çevirmək əmsalları kifayət qədər yüksəkdir.

"Olimpiya" topa sahib olarkən geri dönüşlərdə cinahlarda ciddi boşluqlara yol verir. Bunun üçün topa zamanında sürət verməklə, real qol epizodları yaratmaq mümkündür. Qapıçıları Matevz Vidovşek hava toplarına çıxışlarda zamanlama baxımından gec qalsa da, yerlə endirilən zərbələrdə yaxşı təsir bağışlayır.

Sloveniya təmsilçisinin cinah oyunlarının qarşısını almaq üçün onları mərkəzdə qısa ötürmələrlə yormaq lazımdır. Çünki əvvəlki qarşılaşmaları izlədikdə topa daha çox sahib olan komandalara qarşı ciddi problemlər yaşadıqları görünür.

Belə qənaətə gəlmək olar ki, ilk dəqiqələrdə Ağdam təmsilçisi topa daha çox sahib çıxaraq qısa ötürmələrə üstünlük verəcək. Daha yüksək fiziki hazırlığın tələb olunduğu oyun planı fonunda rəqibə boş zona yaratmamağa çalışılmalıdır. Bu oyun planı işə düşərsə, komandamız rəqibə qarşı üstünlük əldə edə bilər. Abdulla Zubirin tez-tez cinahları dəyişməsi, Cicanın, Juninyonun (əgər ilk 11-likdə oynayarsa) topsuz oyunlarda rəqib müdafiəçiləri üzərinə çəkməsi "Olimpiya"nın arxa xəttində balansın pozulmasına səbəb yaradar. Bu fonda isə Benzia, Leandro Andrade və Yankoviç üçün boş zonalar yaranar ki, uzaqdan vurulan zərbələr nəticəsində istədiyimiz qolu vurmaq imkanına sahib olarıq.

Bir sözlə, hücumda çoxalarkən müdafiə olunmaqda say baxımından geri qalan Sloveniya təmsilçisini komandamız səbirli, həyəcana yol vermədən oynayaraq istədiyi nəticəni qazana bilər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

## Daşkəsəndə vəzifəli şəxs barəsində inzibati protokol tərtib olunub

**Daşkəsən Rayon Polis Şöbəsinin əməkdaşları sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər keçiriblər.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, tədbir zamanı rayonun Bayan kəndində sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktları aşkarlanıb.

İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduqlarına görə, həmin kəndin bələdiyyə sədri barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Avqustun 23-ü saat 02:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutublar.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# Bəzi yerlərdə yağış yağacaq

Azərbaycanda avqustun 24-nə gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman olacaq. Lakin gündüz Abşeron yarımadasının bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək. Havanın temperaturunun gecə 22-27°, gündüz 31-36° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan aşağı - 758 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-50 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 26-27°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şimal və qərb rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 33-38° isti, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacağı bildirilir.


*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi

### *açıq tender elan edir*

İdxal inək, idxal qoyun, idxal qoç, arı ailəsi və digər malların alınması və özünüməşğulluq layihəsi çərçivəsində təchizatı işlərinin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Zığ yolu küçəsi, 4 (Əlaqələndirici şəxs: Şahin Qubadov (055) 220 28 58) ünvanından ala bilərlər.

**İştirak haqqı: 1500 (bir min beş yüz) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: "Kapital Bank" ASC 28 May filialı**
**KOD: 200123**
**Müxbir Hesabı: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**SWIFT AIIBAZ2X**
**H/HESABI: AZ47AIIB38060019440817168112**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış; Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir* ***(01.08.2023-cü il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir).***
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(01.08.2023-cü il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir).***
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).***
9. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığının, təcrübəsinin və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması* ***(01.08.2023-cü il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir).***
11. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.*
12. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması.*
13. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi* ***(01.08.2023-cü il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir).***
14. *Əsas şərtlər toplusunun 11-ci bəndində qeyd olunan digər sənədlər təqdim edilməlidir.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **13 sentyabr 2023-cü il saat 15:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **21 sentyabr 2023-cü il saat 18:30-dək Bakı şəhəri, Xətai rayonu, Zığ yolu küçəsi, 4** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 sentyabr 2023-cü il saat 15:00-da** Bakı şəhəri, Yasamal rayonu, S.Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması

### *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 avqust 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2016-cı ildə Cəmaləddin Ələkbər oğlu Ələkbərovun adına verilmiş Abşeron rayonu, Məmmədli kəndi, "Göy qurşağı" yaşayış kompleksi, ev 7, mənzil 105 ünvanına dair sənədlər itdiyi üçün etibarsız sayılır.


## B İ L D İ R İ Ş

12 iyul 2023-cü il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Bakı, Gəncə, Mingəçevir, Şəki, Şirvan şəhərlərində və Salyan, Qax, Ağsu, Ağdaş, Astara rayonlarında 1, 2 və 3 otaqlı mənzillərin satın alınması məqsədilə keçirilən açıq tenderdə fiziki şəxs Əlisoy Natiq Hüseyn oğlu və fiziki şəxs Ağaməmmədova Xanım Şamil qızı qalib olmuşlar.

Qaliblərlə müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və Aparatın kollektivi iş yoldaşları Vəfa Məmmədzadə-Əsgərova atası

**QABİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova anası

**GÜLBİKƏ ABUSƏD QIZININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi və kollektivi Cənubi Muğan Kanalının İstismarı İdarəsinin rəisi Tehrac Eyvazova atası

**SƏRXOŞ EYVAZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5458
Sifariş 2116
Qiyməti 40 qəpik